QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 104 (6304) 15 iyun 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Dünyanın gözü Şuşada: Böyük müqaviləyə az qaldı

(SƏS TV - CANLI)




# Milli Qurtuluş Günü - Azərbaycanın zəfər tarixidir!



## YAP-da "Qurtuluşdan tərəqqiyə, tərəqqidən zəfərə" adlı gənc rəssamların sənət sərgisi keçirilib



Bax 6

## Ağdamda növbəti qələbəni qazandıq

Lakin burada qeyd etmək lazımdır ki, 97 min minanın basdırıldığı xəritələrin verilməsi həm də minimum 97 min (daha da çox ola bilərdi) insanın...



Bax 9

## Koçaryan Qarabağa gəlsə həbs ediləcək - Yeni təxribatlar erməni əsirlərinin sayını artıra bilər?



## Əhməd İsmayılov: "Media haqqında" qanun layihəsi ekspertiza mərhələsindədir



"Media haqqında" qanun layihəsi Azərbaycan Prezidentinin müvafiq Fərmanı ilə verilmiş tapşırığa əsasən müvafiq İşçi qrupu tərəfindən hazırlanıb. Qanun layihəsinin hazırlanmasında əsas məqsəd media sahəsində...

Bax 7

## Həcc ziyarətinə kimlər gedə biləcək?



Bax 9

## Ermənistan Qarabağın mina xəritələrini harada saxlayır?



Bax 15

## Buffon açıqladı: "Bu həftə yeni klubumun adını öyrənəcəksiniz"



Bax 16

# “Qazandığımız Qələbə region üçün, Azərbaycan üçün yeni dönəmdir”

## Prezident İlham Əliyev on ölkənin Azərbaycanda yeni təyin olunmuş qeyri-rezident səfirlərinin etimadnamələrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Qvatemala Respublikasının, İrlandiyanın, Albaniya Respublikasının, Norveç Krallığının, Monteneqro Respublikasının, Estoniya Respublikasının, Somali Federativ Respublikasının, Yeni Zelandiyanın, Sloveniya Respublikasının və Danimarka Krallığının ölkəmizdə yeni təyin olunmuş qeyri-rezident səfirlərinin etimadnamələrini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfirləri salamlayan Prezident İlham Əliyev dedi:**

- Hörmətli səfirlər, sabahınız xeyir. Sizi Azərbaycanda salamlayıram. Sizi görməyə çox şadam. Ümid edirəm ki, sizin Azərbaycanda səfir kimi fəaliyyətiniz zamanı Azərbaycanla təmsil etdiyiniz ölkələr arasında inkişafın yeni mərhələsinə qədəm qoyulacaq. Əminəm ki, iqtisadi sahədə, infrastrukturun inkişafı sahəsində, əlbəttə ki, mədəniyyət sahəsində və siyasi inkişaf sahəsində çoxlu əməkdaşlıq sahələrini müəyyən edəcəyik.

Təmsil etdiyiniz ölkələrlə Azərbaycan çoxsaylı beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq edir - birinci növbədə Birləşmiş Millətlər Təşkilatında, eyni zamanda, ATƏT-də, İslam Əməkdaşlıq Təşkilatında, Avropa Şurasında, Qoşulmama Hərəkatında. Müxtəlif beynəlxalq formatlarda bizim çox fəal təmaslarımız var və mən əminəm ki, bu, belə də davam edəcək. Çünki ölkələrimiz arasında hər hansı fikir ayrılığı yoxdur. Ümumiyyətlə, Azərbaycanın xarici siyasət kursu dünyanın bütün ölkələri ilə əməkdaşlığın gücləndirilməsi məqsədini daşıyır. Hesab edirəm ki, məhz buna görə Azərbaycan indi BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilata - Qoşulmama Hərəkatına sədrlik edir. Biz 120 ölkənin yekdil qərarı ilə Qoşulmama Hərəkatının sədri seçilmişik. Bu, Azərbaycanın yüksəksəviyyəli beynəlxalq nüfuzunu nümayiş etdirir. Çünki 120 ölkənin yekdil qərarı ilə seçilmək çox şey deməkdir. Sədrliyi təhvil aldıqdan sonra bəyan etdik ki, biz ədaləti, beynəlxalq hüququ və üzv dövlətlərin maraqlarını qoruyacağıq. Biz bunu etməyə çalışırıq. Xüsusilə indi COVID-19 pandemiyası ilə əlaqədar olaraq Azərbaycan iki mühüm beynəlxalq tədbirin keçirilməsinin təşəbbüskarı olmuşdur - Qoşulmama Hərəkatının COVID-19-a həsr olunmuş Sammiti və BMT Baş Assambleyasının COVID-19-la bağlı xüsusi iclası. Bu təşəbbüs də 155 ölkə tərəfindən dəstəklənmişdir. Bizim daimi verdiyimiz ən əsas mesajlardan biri vaksin millətçiliyinə yol verməmək və vaksinləri almaq üçün maliyyə resursları olmayan ölkələrin donor təşkilatları və zəngin ölkələr tərəfindən dəstəklənməsinə imkan yaratmaq üçün vaksinlərin ədalətli paylanılmasıdır.

Siz Azərbaycanda fəaliyyətə bizim üçün çox önəmli bir vaxtda başlayırsınız. Ermənistan tərəfindən Azərbaycan torpaqlarının uzunmüddətli işğalına son qoyan Vətən müharibəsində keçən il qazandığımız Qələbə region üçün, Azərbaycan üçün yeni dönəmdir, Azərbaycanın və regionun yeni inkişaf mərhələsidir. Beynəlxalq təşkilatların qərar və qətnamələrinə baxmayaraq, Ermənistan onların tələblərinə əməl etmədi və torpaqlarımızı, demək olar ki, 30 il ərzində işğal altında saxladı, beynəlxalq hüququ kobudcasına pozdu, erməni qoşunlarının ərazilərimizdən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən Birləşmiş Millətlər Təşkilatının dörd qətnaməsini kobudcasına pozdu. Bu qətnamələr 27 il ərzində hər hansı bir irəliləyiş olmadan kağız üzərində qaldı. Odur ki, Azərbaycan bu qətnamələri özü icra etdi, ərazi bütövlüyünü bərpa etdi və bu ədalətsizliyə son qoydu. Təkcə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası yox, həmçinin ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası kimi beynəlxalq təşkilatlar və bir çox digər təşkilatlar Azərbaycanın Ermənistanla münaqişə ilə bağlı ədalətli mövqeyinə dəstək oldu və bu, məsələnin həlli üçün çox möhkəm beynəlxalq təməl yaratdı. Beləliklə, biz beynəlxalq hüquq çərçivəsində hərəkət etdik, biz bütün ölkələrə özünümüdafiə hüququ verən BMT-nin nizamnaməsi əsasında hərəkət etdik və 44 günlük müharibə zamanı biz məhz bunu da etdik.



Müharibədən sonra regionda yeni reallıq, yeni vəziyyət yaranıb və Azərbaycan işğaldan azad olunmuş ərazilərin yenidən qurulması prosesinə dərhal başladı. Siz işğaldan azad olunmuş əraziləri ziyarət edəcəksiniz, şəhərlərimizin, kəndlərimizin, tarixi və dini yerlərimizin tamamilə dağıdıldığını özünüz görəcəksiniz. Vandalizm və barbarlıq - işğal illəri ərzində Ermənistan dövlətinin torpaqlarımızda etdiklərini göstərmək üçün bu iki sözdən istifadə etmək olar. Biz indi böyük bir çağırışla üzləşmişik. Biz məcburi köçkünləri qaytarmalıyıq, biz yüz minlərlə azərbaycanlını geriyə qaytarmalıyıq, lakin minalara görə bu gün bunu etmək mümkün deyil. Ermənilər tərəfindən yüz minlərlə mina basdırılmışdır və müharibə dayanandan sonrakı son yeddi ay ərzində 100-dən çox azərbaycanlı Ermənistanın bizə mina xəritələrini vermədiyinə görə qətlə yetirilib və ya yaralanıb. Bu yaxınlarda beynəlxalq təşkilatların fəal təmasları sayəsində biz ermənilərin basdırdığı minalar haqqında müəyyən informasiyanın alınmasına yaxınlaşırıq. Ümid edirəm ki, tezliklə yaxşı xəbərlər olacaq. Lakin bu nəticələri əldə etmədən öncə heç nə söyləmək istəmirəm. Lakin Ermənistan bizə bütün minaların, basdırdıqları bütün yüz minlərlə minaların xəritəsini verməlidir.



Əgər onlar bunu etməsələr, bu, bir daha bu ölkənin terrorçu xislətini nümayiş etdirəcək. Ərazini təmizləyəndən sonra bununla paralel olaraq biz şəhər və kəndlərimizin bərpasına və yenidən qurulmasına başlayacağıq. Bu, böyük ərazidir, on min kvadratkilometrdən çoxdur. Bu ərazi Ordumuz tərəfindən, Dağlıq Qarabağ münaqişəsinə son qoymuş Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin ötən il 10 noyabr tarixli birgə Bəyanatı nəticəsində azad edilib. Ötən il noyabrın 10-da imzalanmış Bəyanat, bəzi ölkələrin təqdim etmək istədiyi kimi, sadəcə, atəşkəs barədə Bəyanat deyil. Bu, atəşkəsdən daha böyük sənəddir, çünki burada gələcəkdə hadisələrin necə inkişaf edəcəyi, necə davam edəcəyi açıq-aydın göstərilir. O, kommunikasiyaların açılmasını təmin edir, sülhməramlı əməliyyatları təmin edir, o, regionda gələcək əməkdaşlığa dair Bəyanatdır. Ona görə də bu, bəzilərinin təqdim etmək istədiyi kimi atəşkəs sənədi deyil. Bu, Azərbaycanla Ermənistan arasında sülh sazişi üçün bünövrədir. Əfsuslar olsun ki, bizim Ermənistanla sülh razılaşmasına dair danışıqlara başlamağa hazır olmağımızla bağlı açıq bəyanatlarımız Ermənistan hökuməti tərəfindən cavablandırılmır. Bizim Ermənistanla dövlət sərhədinin delimitasiyası üzrə danışıqlara başlamaqla bağlı böyük beynəlxalq tərəflərin dəstəklədiyi təklifimizə də Ermənistan hökuməti məhəl qoymur. Biz bunu başa düşə bilmirik. Əgər Ermənistan sülh istəyirsə, bizim də sülh sazişinə ehtiyacımız var. Əgər Ermənistan müharibə istəyirsə, ötən ilin payızındakı eyni nəticəni əldə edəcək. Əgər Ermənistan sülh istəyirsə, onlar delimitasiya ilə bağlı bizimlə danışıqlara başlamalıdır. Əgər onlar bunu etməsələr, peşman olacaqlar. Beləliklə, biz Qafqazda yeni inkişaf mərhələsinə hazırıq, biz sülhə hazırıq və biz bunu nümayiş etdiririk. Əminəm ki, Azərbaycana gələcək səfərləriniz zamanı görəcəksiniz ki, bizim sözlərimiz, bəyanatlarımız və imzamız eyni dəyərə malikdir.

Sizi ölkəmizdə bir daha salamlamaq istərdim. Sizə uğurlar arzulayıram və ümid edirəm ki, Azərbaycana tez-tez səfər edəcəksiniz. Təşəkkür edirəm!

XXX

Prezident İlham Əliyev səfirlərlə ikitərəfli əlaqələr və regional məsələlər barədə söhbət etdi.

# Bakı Olimpiya Stadionunda Avropa çempionatının final mərhələsinin Uels-İsveçrə matçı keçirilib

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oyuna baxıblar

**İyunun 12-də tarixdə ilk dəfə Azərbaycanda futbol üzrə Avropa çempionatının final mərhələsinin ilk oyunu keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva A qrupunun Bakı Olimpiya Stadionunda keçirilən Uels-İsveçrə matçına baxıblar.**

Avropa çempionatının oyunlarının Bakıda keçirilməsi Azərbaycan idmanının beynəlxalq səviyyədə qazandığı növbəti uğurun bariz nümunəsidir. Ölkəmiz indiyədək idmanın müxtəlif növlərinə aid mötəbər beynəlxalq yarışlara yüksək səviyyədə ev sahibliyi edib. Bu gün ən nüfuzlu idman qurumlarının böyük beynəlxalq yarışlara ev sahibliyi hüququnu tərəddüd etmədən Azərbaycana verməsi də təsadüfi deyil.

Uels-İsveçrə matçı gərgin mübarizə şəraitində keçdi. Matçın ilk hissəsi qolsuz başa çatdı. İsveçrə millisinin hücumçusu Breel Embolo matçın 49-cu dəqiqəsində hesabı açdı. Bundan sonra hücumlarının sayını artıran Uels komandası 74-cü dəqiqədə Kieffer Murun qolu ilə hesabı bərabərləşdirdi.

Matçın 85-ci dəqiqəsində İsveçrə yığmasının hücumçusu Mario Qavranoviçin Uels millisinin qapısına vurduğu qol isə videonəzarət sistemində baxıldıqdan sonra qeydə alınmadı. Oyun 1:1 hesablı heç-heçə ilə başa çatdı.

Qeyd edək ki, Avropa çempionatının 60 illik yubileyi münasibətilə AVRO-2020-nin oyunları müxtəlif ölkələrdə təşkil olunacaq. Bakı Olimpiya Stadionu A qrupu çərçivəsində iyunun 16-da Türkiyə-Uels və iyunun 20-də isə Türkiyə-İsveçrə oyunlarına da ev sahibliyi edəcək. İyulun 3-də isə Bakıda dörddəbir final mərhələsinin bir qarşılaşması olacaq.











# “Biz doğma torpaqlarımıza qayıtmışıq, Füzuliyə qayıtmışıq”

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfər ediblər*



## Rəsmi xronika

Prezident İlham Əliyev İşğaldan azad olunan ərazilərdə vəzifə borcunu yerinə yetirmiş bir qrup şəxsin 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Bosniya və Herseqovinada (Sarayevo şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Sərəncam imzalayıb.



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 14-də Füzuli rayonuna səfərə gəliblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar. Prezident İlham Əliyevə hava limanında görülən işlər barədə məlumat verildi.**

“AzVirt” MMC-nin baş direktoru Kamil Əliyev: Cənab Prezident, Füzuli Beynəlxalq Hava Limanının tikintisinə yanvar ayında başlanmışdır. Bu plakatda 3 min metr uzunluğunda, 60 metr enində uçuş-enmə zolağı əks olunub. Təyyarələrin enişi iki tərəfdən də təmin olunur. Bu günə biz uçuş-enmə zolağının və perronun tikintisində torpaq işlərini bitirmişik. İndi biz yol geyiminin tikintisi ilə məşğuluq.

**Prezident İlham Əliyev: Görürəm yola artıq asfalt vurursunuz.**

Kamil Əliyev: Bizim proqramımıza əsasən, sentyabrın 5-də burada birinci sınaq uçuşu yerinə yetiriləcək. Biz bu tikintini aparmaq üçün burada - Quruçayda iki asfalt zavodu quraşdırmışıq, üç daşqıran qurğu da var.

**Prezident İlham Əliyev: Burada olan materiallardan istifadə edirsiniz?**

Kamil Əliyev: Həm burada, həm də Zəfər yolunun tikintisində, 17 kilometr yolda istifadə edirik. Perronun ölçüləri 60 min kvadratmetrdir, təxminən 8 ədəd A-320 tipli təyyarə yerləşə bilər. Bir də avtomobil dayanacağı olacaq, 170 avtomobillik.

**Prezident İlham Əliyev: Bu, Füzuliyə gedən yolla əlaqələndirilib.**

Kamil Əliyev: Füzuliyə gedən yolla birləşməsi bu hissədədir. Həm Zəfər yolu ilə birləşəcək, həm də əsas o dördzolaqlı magistral yolla.

Binanın tikintisində beton işləri demək olar, 80 faiz yekunlaşıb.

**Prezident İlham Əliyev: Buradadır?**

Kamil Əliyev: Bəli, buradadır. Dam örtüyü İtaliyadan gətirilib və artıq Bakıdadır. Türkiyədən fasad materialları gətirilib.

**Prezident İlham Əliyev: Bu aerovağzal kompleksi təxminən nə vaxt hazır olacaq?**

Kamil Əliyev: Aerovağzal kompleksi bu ilin sonuna kimi tam istifadəyə verilə bilər. İşlər bu sürətlə getsə.

**Prezident İlham Əliyev: Qüllə də tikilir?**

Kamil Əliyev: Bəli, qüllə tikilir, aeronaviqasiya, tikinti işləri aparılır. İşıq-siqnal sistemini türk şirkəti işləyir. Yarımstansiya tikilib, işlər hər istiqamətdə aparılır.

Sonra Prezident İlham Əliyev uçuş enmə zolağında görülmüş işlərlə tanış oldu.

**Prezident İlham Əliyev: Böyük hissəsi artıq hazırdır?**

Kamil Əliyev: 800 metr. Zəngilanda da artıq torpaq işlərinə başlamışıq.

**Prezident İlham Əliyev: Orada da başlamısınız?**

Kamil Əliyev: Bəli. Bir də Laçın rayonunda aeroportun tikiləcəyi yerə də getdik, layihədə harada yerləşir, onu da müəyyən etdik. Torpaq işi böyük həcmdədir.

**Prezident İlham Əliyev: Bilirəm, orada dağlar kəsilməlidir. Bu iş də nəzərdə tutulur. Nə vaxt başlayacaqsınız?**

Kamil Əliyev: Biz artıq mobilizasiya olunuruq. Orada ofisimiz var, artıq texnika aparmışıq.





**Prezident İlham Əliyev: Çox yaxşı. Avtomobil yolunda işlər necə gedir?**

Kamil Əliyev: Cənab Prezident, Füzuli-Şuşa yolunun 17 kilometrlik hissəsidir, bir də bizdə Füzuli-Hadrut yolunun 10 kilometridir. Biz bu yaxınlarda Ağbənd yolunun tikintisi ilə bağlı müqavilə də imzaladıq.

*Ardı Səh. 5*

# "Biz doğma torpaqlarımıza qayıtmışıq, Füzuliyə qayıtmışıq"

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfər ediblər*





**Əvvəli Səh. 4**

Prezident İlham Əliyev: Bəli, onu demişəm. Horadiz-Ağbənd yolunun yarısını siz inşa edirsiniz.

X X X

Onu da deyək ki, hazırda Füzuli, Zəngilan və Laçın hava limanlarına uçuşların beynəlxalq standartlara uyğun təmin edilməsi üçün yeni beynəlxalq hava dəhlizlərinin tətbiqi üzrə işlər davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 14-də Füzuli rayonundakı Aşağı Köndələnçay su anbarında olublar. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına su anbarının texniki göstəriciləri barədə məlumat verildi.

Bildirildi ki, ümumi tutumu 9,5 milyon kubmetr olan bu su mənbəyi 62 min hektar sahəni suvarmağa imkan verirdi. 1993-cü ildə Füzuli rayonu erməni qəsbkarları tərəfindən işğal edildəndən sonra su anbarının Azərbaycan tərəfindən istismarı qeyri-mümkün olub. İşğal zamanı torpaqlarımızda ekoloji terror törədən ermənilər təsərrüfat işlərində suya ciddi ehtiyac olduğu mövsümlərdə suyun qarşısını kəsir, daşqınlar zamanı, yaxud suya ehtiyac olmayan vaxtlarda isə anbarlardan suyu buraxaraq ciddi problemlər yaradırdılar.

Prezident İlham Əliyev:

-Bura Köndələnçay su anbarıdır. Uzun illər düşmənin əlində idi. Uzun illər biz bu sudan məhrum idik. İkinci Qarabağ müharibəsindən sonra artıq bizim əlimizdədir və bundan sonra Azərbaycan xalqının maraqlarına xidmət edəcək. Bu su anbarı ulu öndər Heydər Əliyevin göstərişi və təşəbbüsü ilə 1980-ci illərin əvvəllərində inşa edilmişdir. Bunun əsas məqsədi Füzuli rayonunda kənd təsərrüfatının inkişafı idi və minlərlə hektar torpaq bu anbar vasitəsilə suvarılırdı. Biz Vətən müharibəsindən sonra həm Suqovuşan su anbarını nəzarətə götürdük, həm də Köndələnçay su anbarı bizim əlimizdədir. Artıq bu anbarların gələcək istismarı ilə bağlı müvafiq göstərişlər verildi.

Azad edilmiş bütün torpaqların su mənbələrinin xəritəsi hazırlanır. Bizim bütün su ehtiyatlarımız, çaylarımız, göllərimiz, su anbarlarımız - bu sərvətimiz indi bizim əlimizdədir. Bu sudan səmərəli şəkildə istifadə etmək üçün yeni kanalların çəkilməsi və köhnə kanalların bərpası məqsədilə artıq vəsait də ayrılıb, müvafiq göstərişlər verildi və geniş proqram icra edilməyə başlanmışdır.

Köndələnçay su anbarına mən bir müddət bundan əvvəl bir heyət göndərmişdim. Bu anbarın vəziyyəti araşdırıldı və həyat bu bölgəyə qayıdandan sonra əlbəttə ki, biz bu sudan istifadə edəcəyik. İşğal dövründə



mənfur düşmən bizi sudan məhrum etmişdi. Sərsəng su anbarı, Suqovuşan su anbarı düşmənin əlində olduğuna görə 100 min hektar torpaq susuz qalmışdı və bir neçə rayonda su təminatını yaxşılaşdırmaq üçün yüzlərlə subartezian quyusu qazılmışdır. Ağdam, Tərtər, Bərdə, Yevlax, Goranboy və digər rayonlar Tərtərçayın suyundan məhrum edilmişdi. Mənə bu yaxınlarda verilən məlumata görə, Vətən müharibəsindən sonra 30 min hektardan çox sahəyə Suqovuşan su anbarından su verilməyə başlanmışdır. Eyni zamanda, Ağdam rayonunda Xaçınçay su anbarı da bizim nəzarətimizdədir, işğaldan azad edilib və o su anbarı bu su anbarından həcm baxımından daha böyükdür. Bir daha demək istəyirəm ki, bizim bütün su ehtiyatlarımız araşdırılır, təhlil edilir və gələcəkdə bizə böyük üstünlük verəcəkdir.

Biz doğma torpaqlarımıza qayıtmışıq, Füzuliyə qayıtmışıq, Köndələnçay su anbarı bizim əlimizdədir və əbədi bizim əlimizdə olacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Əhmədbəyli-Füzuli-Şuşa yolunda və Zəfər yolunda görülən işlərlə tanış olub. Dövlətimizin başçısına avtomobil yollarında tikinti işlərinin gedişi barədə məlumat verildi. Bildirildi ki, 4 və 6 hərəkət zolaqlarından ibarət Əhmədbəyli-Füzuli-Şuşa yolunun uzunluğu 81 kilometr, Zəfər yolunun uzunluğu isə 101 kilometr olacaq. Hər iki yol boyunca tunellər, körpülər inşa ediləcək, bütün zəruri infrastruktur yaradılacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 14-də yeni tikilən "Füzuli" yarımstansiyasının açılışında iştirak ediblər. Dövlətimizin başçısına 110/35/10 kilovoltluq yarımstansiyada görülən işlər barədə məlumat verildi.

Qeyd edək ki, Füzuli şəhərində yeni 110/35/10 kilovoltluq yarımstansiya Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərin ən qısa vaxtda elektrik enerjisi ilə təchiz edilməsinə dair tapşırığına uyğun olaraq tikilib. İnşa edilən yeni aeroportun və Şuşa yolunun yaxınlığında yerləşən bu yarımstansiya hava limanı da daxil olmaqla Füzuli şəhəri və ətraf kəndlərdə inşa ediləcək bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcək.

Bildirilib ki, yarımstansiya, o cümlədən yeni İdarəetmə Mərkəzi ən müasir tələblərə cavab verən avadanlıqla təchiz olunub və komplektləşdirilib. İdarəetmə Mərkəzində texniki imkanlarla yanaşı, əməkdaşların səmərəli çalışmaları və istirahəti üçün hərtərəfli şərait yaradılıb. Dövlətimizin başçısı "Füzuli" yarımstansiyasını işə saldı. Yarımstansiyanın işinə real vaxt rejimində nəzarət olunması və göstəricilərin "Azərenerji" ASC-nin SCADA sisteminə ötürülməsi məqsədilə yerli mikro-SCADA dispetçer idarəetmə sistemi qurulub.

Sonra Prezident İlham Əliyev yenidən qurulan 110/35/10 kilovoltluq "Şükürbəyli" yarımstansiyasının da məsafədən idarə olunan SCADA dispetçer sistemi vasitəsilə açılışını etdi.

Bildirildi ki, işğaldan azad edilən ərazilərin böyük hissəsinin Azərbaycanın ümumi enerji sisteminə qoşulması üçün "Şükürbəyli" yarımstansiyası genişləndirilərək tam yenidən qurulub. Bu məqsədlə yarımstansiyanın gücü artırılmaqla yanaşı, 110 kilovoltluq açıq paylayıcı qurğu sökülərək daha müasir formada yenidən tikilib. Burada yeni avadanlıqla komplektləşdirilmiş mühafizə və avtomatika sistemləri ilə təchiz edilən İdarəetmə Mərkəzi yaradılıb və lokal mikro-SCADA sistemi qurularaq yarımstansiyanın idarə olunması tam rəqəmsallaşdırılıb.

Prezident İlham Əliyev dünən həmçinin



Zəfər yolunun Xocavənd rayonundan keçən hissəsində inşa edilən körpüdə görülən işlərlə tanış olub. Dövlətimizin başçısına körpünün texniki göstəriciləri barədə məlumat verildi.

Bildirildi ki, Quruçay üzərində inşa olunan üçaşırımlı körpünün uzunluğu 86 metr olacaq. İşğaldan azad edilən ərazilərimizdə görülən bütün bərpa və yenidənqurma işləri kimi, burada da tikinti yüksək sürətlə aparılır və yol istismara verilənədək bu körpü də hazır olacaq.

Bundan başqa, Prezident İlham Əliyev iyunun 14-də Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Daşaltı kəndinin ərazisindən keçən hissəsində inşa olunacaq tunelin təməlini qoyub. Dövlətimizin başçısına tunelin texniki göstəriciləri barədə məlumat verildi.

Bildirildi ki, burada ümumilikdə iki tunel tikiləcək və onların hər biri ikizolaqlı olacaq. Tunellərin hər birinin uzunluğu 530 metr, eni isə 12 metr olacaq.

**İyunun 14-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Gənclər Birliyinin təşkilatçılığı ilə 15 İyun Milli Qurtuluş Gününə həsr edilmiş "Qurtuluşdan tərəqqiyə, tərəqqidən zəfərə" adlı gənc rəssamların sənət sərgisi keçirilib.**







# YAP-da "Qurtuluşdan tərəqqiyə, tərəqqidən zəfərə" adlı gənc rəssamların sənət sərgisi keçirilib







SİA-nın verdiyi məlumata görə, sərginin açılışında çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını 15 İyun Milli Qurtuluş Günü münasibətilə təbrik edib. Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən bəhs edən Tahir Budaqov bildirib ki, Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etsə də, onu itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. O zamankı hakimiyyət isə respublikanı idarə etmək iqtidarında deyildi. Bu səbəbdən də, respublikamızda dərin böhran hökm sürür, torpaqlarımızın isə Ermənistan tərəfindən işğalı davam edirdi. Belə bir şəraitdə xalqımız, o cümlədən dəyərli ziyalılarımız bu ağır durumdan çıxış yolunu yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasında gördü.





YAP Sədrinin müavini qeyd edib ki, 1993-cü ilin 15 iyununda Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın tarixində yeni mərhələ başlandı. Tahir Budaqov ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin bu bəlalardan xilas olaraq inkişaf yoluna qədəm qoyduğunu, respublikamızda mühüm siyasi və iqtisadi islahatların həyata keçirildiyini, neft strategiyasının reallaşdırıldığını, cəbhədə atəşkəsin əldə olunduğunu, nizami ordu quruculuğu prosesinə başlandığını, cəmiyyətin inkişafı üçün fundamental əsasların yaradıldığını bildirib. Onun sözlərinə görə, bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, regionda və dünyada Azərbaycanın nüfuzu daha da artır. Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan beynəlxalq müstəvidə güclü, qüdrətli dövlətə çevrilib. YAP Mərkəzi Aparatının rəhbəri diqqətə çatdırıb ki, "Dəmir yumruq" əməliyyatı ilə qazanılan tarixi zəfərin əsasında Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, Azərbaycanın siyasi, iqtisadi, mədəni, hərbi sahələrdə, eyni zamanda, xarici siyasətdə uğurları və xalq-iqtidar birliyi dayanır.

Tahir Budaqov əminliklə bildirib ki, Ulu Öndərin dediyi kimi, Azərbaycanın müstəqilliyi əbədi olacaq və ölkəmizin qüdrəti daha da artacaq. O, təşkil olunmuş sərginin Milli Qurtuluş Gününə həsr edildiyini vurğulayıb: "Düşünürəm ki, gənclərimizin də bu sərgidə iştirakı, zəngin əsərlərlə tanış olması həm onların bədii-estetik zövqünün inkişafına təkan verir, həm də biz burada bu tədbir vasitəsilə Ulu Öndərin xilaskarlıq salnaməsini yada salır, Azərbaycanın milli qurtuluşunun tariximizdə, dövlətimizin həyatındakı rolunu bir daha gənclərimizin diqqətinə çatdırırıq".

YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov sərginin ərsəyə gəlməsində Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rolunu vurğulayıb və Akademiyanın rektoru, akademik Ömər Eldarova təşəkkürnamə və "Zəfər salnaməsi" kitabını təqdim edib.

Çıxış edən Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, akademik Ömər Eldarov ümummilli liderimiz Heydər Əliyevin tarixi xidmətlərindən bəhs edib. O qeyd edib ki, hər il ümummilli liderimiz Heydər Əliyevə həsr olunmuş sərgilər təşkil olunur və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının yetirmələri bu prosesdə böyük ruh yüksəkliyi ilə iştirak edirlər.

Tədbirdə çıxış edən YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə isə bildirib ki, 15 İyun Milli Qurtuluş Günü Azərbaycan tarixində müstəsna yer tutur. Çünki ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə, ilk növbədə, Azərbaycan məhv olmaqdan, parçalanmaqdan xilas oldu. Qanunsuz silahlı birləşmələr ləğv edildi, ölkənin parçalanmaq təzahürləri dəf edildi, vətəndaş müharibəsi dayandırıldı, güclü ordu yaradıldı.

Onun sözlərinə görə, Ulu Öndərin tarixi qayıdışından sonra respublikada bütün sahələr üzrə dirçəliş dövrü, Azərbaycanın dünya birliyinə fəal inteqrasiyası başlandı, siyasi və iqtisadi islahatlar aparıldı. Müstəqil dövlətimizin yeni Konstitusiyası qəbul olundu. Bütövlükdə, bu gün ölkəmiz dünyanın nüfuzlu dövlətləri sırasındadır. Xüsusilə əlamətdar haldır ki, Müzəffər Ali Baş Komandanımız, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz torpaqlarımızı erməni işğalından azad etdi. Biz bu il Milli Qurtuluş Gününü qələbə əhval-ruhiyyəsi ilə qeyd edirik. Qazanılan bütün nailiyyətlərin əsasında isə qurtuluş məfkurəsi dayanır.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov da çıxışında 15 İyun Milli Qurtuluş Gününün tariximizdəki rolundan danışaraq, müstəqil Azərbaycanın qurulması və inkişafında ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərindən söz açıb. O bildirib ki, müasir Azərbaycan gəncliyinin inkişafının əsası da məhz qurtuluşdan sonra qoyulub. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət gənclər siyasəti cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Dövlətimizin gənclərə yüksək diqqət və qayğısı gənclərimizin üzərinə məsuliyyət qoyur. Biz gənclər öz fəaliyyətimizlə göstərilən yüksək etimadı hər zaman doğrultmağa çalışacağıq", -deyə B.İslamov vurğulayıb. Daha sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

# Şahlar Əsgərovun 80 illik yubileyi münasibətilə görüş keçirilib

İyunun 14-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının üzvü, professor Şahlar Əsgərovun 80 illik yubileyi münasibətilə görüş keçirilib.



SİA-nın verdiyi məlumata görə, Yeni Azərbaycan Partiyası Sədrinin müavini- Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yubilyarı doğum günü münasibətilə təbrik edərək ona möhkəm cansağlığı, elmi-pedaqoji və ictimai-siyasi fəaliyyətində yeni-yeni uğurlar arzulayıb. Bildirilib ki, təhsilimizin inkişafında xüsusi xidmətləri olan, gənc nəslin təlim-tərbiyəsinin formalaşmasında özünəməxsus dəsti-xətti ilə seçilən görkəmli ziyalı və dəyərli alimimiz olaraq Şahlar Əsgərov uzun illərdir ki, Azərbaycan elminin tərəqqisinə samballı töhfələr verir, ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edir.



Tahir Budaqov qeyd edib ki, Şahlar Əsgərovun Azərbaycanın ictimai-siyasi həyatında fəal mövqeyi də danılmazdır. Belə ki, o, xalqımızın, dövlətimizin müqəddəratının həll olunduğu bir dövrdə ulu öndər Heydər Əliyevə tarixi müraciət edən 91 ziyalımızdan biridir. Şahlar Əsgərov həmçinin, ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının təşkilatlanma prosesində fəallıq göstərib, bir ziyalı kimi üzərinə düşən vəzifələri hər zaman layiqincə yerinə yetirib. Uzun müddət YAP Siyasi Şurasının və İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı, parlamentin Elm və təhsil məsələləri daimi komissiyasının sədri kimi uğurlu fəaliyyət göstərib, hazırda isə YAP Veteranlar Şurasının üzvü olaraq partiyamızın həyatında yaxından iştirak edir.

Qeyd olunub ki, Şahlar Əsgərovun çoxşaxəli və zəngin fəaliyyəti dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib, 1999-cu ildə "Şöhrət" ordeninə, 2001-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb. Yubilyarı doğum günü münasibəti ilə təbrik edən YAP-ın Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə professor Şahlar Əsgərovu hər zaman öz sözü və dəyişməz mövqeyi olan vətəndaş kimi xarakterizə edib.

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı tərəfindən göstərilən diqqətə və ünvanına deyilən xoş sözlərə görə təşəkkürünü bildirən professor Şahlar Əsgərov partiyanın VII Qurultayında ona göstərilən yüksək etimada görə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevə dərin minnətdarlığını ifadə edib, bundan sonra da üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirmək üçün səy və bacarığını əsirgəməyəcəyini bildirib.

# Əhməd İsmayılov: "Media haqqında" qanun layihəsi ekspertiza mərhələsindədir



"Media haqqında" qanun layihəsi Azərbaycan Prezidentinin müvafiq Fərmanı ilə verilmiş tapşırığa əsasən müvafiq İşçi qrupu tərəfindən hazırlanıb. Qanun layihəsinin hazırlanmasında əsas məqsəd media sahəsində sistemləşdirmənin təşkili, bunun üçün də media reyestrinin formalaşdırılmasıdır. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov deyib.

O qeyd edib: "Media subyektlərinin reyestri demək olar ki, əvvəllər də Azərbaycanda mövcud olmuş çap mediasının uçotunun aparılması qaydasındakı vəziyyətlə eynilik təşkil edir. Sadəcə, fərq ondan ibarətdir ki, nəinki çap mediası, eyni zamanda, audiovizual media subyektləri və onlayn media subyektləri də eyni qaydada reyestrdən keçmiş olmalıdırlar.

Hazırda bu istiqamətdə işin getdiyini qeyd edən Ə.İsmayılov vurğulayıb ki, İşçi qrup tərəfindən qanun layihəsinin ekspertizası yekunlaşdırıldıqdan sonra qısa müddət ərzində parlamentə təqdim olunacaq.

# Səfir: ABŞ Azərbaycanın regionda sülhün və təhlükəsizliyin təmin olunmasındakı rolunu yüksək qiymətləndirir



ABŞ Azərbaycanın regionda uzunmüddətli sülhün və təhlükəsizliyin təmin olunmasındakı rolunu yüksək qiymətləndirir. Rəsmi Vaşinqton, eyni zamanda, Azərbaycan tərəfinin saxladığı 15 Ermənistan vətəndaşını sərbəst buraxmasını alqışlayır. AZƏRTAC xəbər verir ki, bu sözləri ABŞ-ın Gürcüstandakı səfiri Kelli Deqnan jurnalistlərə açıqlamasında söyləyib. Diplomat Gürcüstanın regiondakı proseslərdəki rolunu yüksək qiymətləndirib. Bildirib ki, bu addımlar regionda sabitliyin təminatına və tərəqqiyə xidmət edir. Bu, həm də Cənubi Qafqaz ölkələrinin birgə çalışmaqla nə əldə edə biləcəklərinin göstəricisidir.

# "Ərdoğanın Şuşa səfəri Azərbaycan səfərinin incə bir nöqtəsidir"



"Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya bu dəfəki səfəri Türkiyə-Azərbaycan münasibətlərinin keyfiyyətcə tamamilə yeni bir dövrünə təsadüf edir. Hansı ki, bu dövrdə bölgədə tam yeni reallıqların yaradıldığı bir mərhələ nümayiş olunur. Bu mərhələ Azərbaycanın və Türkiyənin birgə səyləri ilə yaradılıb. Bölgəmizdə yeni reallığın yaradılması əslində mütləq mənada Türkiyə-Azərbaycanın tandeminin fəaliyyəti hesabına baş verib". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.

Onun sözlərinə görə, cənab Ərdoğanın bu səfəri bölgəmizdə 44 günlük müharibədən sonra yaranmış yeni reallıqlar özünü iqtisadi, siyasi, ticarət və investisiya əməkdaşlığında hansı formalarda göstərəcəyini bir daha dünyaya nümayiş etdirəcək: "Heç bir şübhə yoxdur ki, bölgədə yaranmış yeni reallıqların gerçəkləşməsində Türkiyə-Azərbaycan tandemi indiyə qədər olduğu kimi bundan sonra da əsas rol oynayacaq. Regionda iqtisadiyyat, siyasət, ticarət və investisiyaya inteqrasiya proseslərinin bu mərhələsində Türkiyə-Azərbaycan əməkdaşlığı yenə də həlledici rol oynayır və iki ölkə bu prosesin başa çatdırılmasında bəlkə də hamıdan çox maraqlı, həmçinin üstün gücə malikdir. Cənab Ərdoğanın xüsusilə Şuşa səfəri Azərbaycan səfərinin incə bir nöqtəsidir. Ona görə ki, Türkiyə Prezidentinin Şuşa səfərindən sonra qəti şəkildə demək mümkün olacaq ki, cənab Ərdoğan Şuşaya işğaldan azad olunandan və Azərbaycan müstəqillik əldə edəndən sonra legitim şəkildə bu şəhərə ayaq basan ilk xarici dövlət başçısı olacaq. Buna görə də bu tarixi əhəmiyyətli bir hadisədir və cənab Ərdoğanın Şuşaya legitim şəkildə ayaq basan ilk dövlət başçısı olması o deməkdir ki, Türkiyə Azərbaycanın yaratdığı yeni reallıqları tam şəkildə qəbul edir".

A.Quliyev vurğulayıb ki, eyni zamanda Türkiyə və onun dövlət başçısı Azərbaycanın siyasətinə tam dəstək verməklə Dağlıq Qarabağ adında inzibati bir ərazi vahidi daha mövcud olmadığını tam şəkildə qəbul edir və Azərbaycana bu mənada gərəkən dəstəyi verir: "Ərdoğanın Şuşa səfəri onu da göstərir ki, Türkiyə Qarabağın statusunun yenidən müzakirəyə qayıdacağı cəhdləri ilə qəti şəkildə razılaşmır. Ümumilikdə, cənab Ərdoğanın Bakıya səfəri Türkiyə-Azərbaycan münasibətlərinin inkişafında keyfiyyətcə tam yeni bir dövrə təsadüf edib. Onun Şuşa səfəri isə Qarabağ probleminin qəti şəkildə həll olduğunun və bu prosesdə Türkiyənin Azərbaycanla bir yerdə olduğunun ifadəsidir".

***Aysel Məmmədova***

# "Mediada islahatlara doğru" mövzusunda silsilə seminarlar başlayıb

İyunun 14-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin və "ADA" Universitetinin İxtisasartırma Proqramlarının birgə təşkilatçılığı ilə "Mediada islahatlara doğru" mövzusunda silsilə seminarlara başlanıb. AZƏRTAC xəbər verir ki, birgə seminarın təşkil olunmasında məqsəd media nümayəndələri arasında təcrübə mübadiləsinin aparılmasıdır.



Seminar silsiləsinin açılış mərasimində çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, ADA Universitetinin icraçı prorektoru Fariz İsmayılzadə və bu ali təhsil ocağının prorektor müavini Aygün Hacıyeva seminarın əhəmiyyətindən danışıblar.



Sonra Əhməd İsmayılov tərəfindən media nümayəndələri ilə "Media haqqında" qanun layihəsi: yeni imkanlar və istiqamətlər" mövzusunda müzakirə aparılıb. Qanun layihəsində yer alan müddəalar barədə media nümayəndələrinə ətraflı məlumat verilib. Bildirilib ki, yeni qanun layihəsi media sahəsində ictimai münasibətlər sistemini tənzimləyən yeni normativ hüquqi aktın hazırlanmasını nəzərdə tutur. Vurğulanıb ki, qanun layihəsinin əsas məqsədi bütün media subyektlərinin, o cümlədən yeni yaranmış onlayn media subyektlərinin də fəaliyyətinin və hüquqlarının müəyyən olunmasıdır.



Qeyd edək ki, iyunun 14-dən iyulun 10-dək davam edəcək seminarlar 75 media nümayəndəsinin iştirakı nəzərdə tutulub. Onlar hər qrup üzrə 25 nəfər olmaqla 3 qrupa bölünərək həm yerli, həm də xarici mütəxəssislərlə təcrübə mübadiləsi aparacaqlar. Qonaqlar arasında "Al Jazeera" və "Haber Global"ın mütəxəssisləri də var.

# 15 İyun Milli Qurtuluş Günü tarixə Azərbaycanın xilası günü kimi daxil olub

*YAP İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının yap.org.az-a müsahibəsi*

***- Mübariz müəllim, 15 iyun - Milli Qurtuluş Gününün müstəqil Azərbaycanın siyasi tarixindəki əhəmiyyəti barədə fikirlərinizi dinləmək maraqlı olardı. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəmiz üçün hansı nəticələrlə yadda qaldı? Ümumiyyətlə, qurtuluş məfkurəsi Azərbaycana nə verdi?***

- Azərbaycanın ən yeni tarixində xalqımız tərəfindən qeyd olunan mühüm günlərdən biri 15 İyun Milli Qurtuluş Günüdür. Bu gün ən yeni tariximizə Azərbaycanın xilası günü kimi daxil olub. Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı həm strateji, həm də ümummilli baxımdan çox mühüm əhəmiyyət kəsb edən hadisə idi. Heydər Əliyevin 15 iyun 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtması böyük hadisə olmaqla Azərbaycan üçün ciddi nəticələr verdi. Ümummilli liderimizin siyasi hakimiyyətə qayıdışı milli müstəqil dövlətimizin həyatında dönüş nöqtəsi idi. Bu hadisə nəticə etibarilə müstəqilliyimizin əbədi, dönməz olmasında çox mühüm və əhəmiyyətli rol oynadı. Bu qayıdış milli müstəqilliyimizin əbədiliyinin təminatı demək idi.

Şərəfli və mənalı ömür yolunu müstəqil Azərbaycan dövlətinin qurulmasına, onun dünya ölkələri arasında layiqli yer tutmasına, xalqımızın xoşbəxt və firavan həyat şəraitində yaşamasına həsr etmiş Ümummilli lider Heydər Əliyev siyasi hakimiyyətə gələrkən Azərbaycanda total böhran vəziyyəti hökm sürürdü. Cəmiyyətin bütün sahələrində Azərbaycan xalqının maraqlarına uyğun olmayan vəziyyət mövcud idi. Onun hakimiyyətə gəlişindən sonra qısa zaman kəsiyində həyata keçirdiyi siyasət nəticəsində ölkəmiz müstəqilliyinin dönməzliyini təmin etdi, eyni zamanda regionda öz mövqelərini möhkəmləndirdi, sosial, mənəvi və iqtisadi sahələrdə Azərbaycan xalqının maraqlarına uyğun siyasət həyata keçirdi.

Ümummilli Liderimiz Heydər Əliyev həmişə Azərbaycan xalqının mənafeyini düşünən bir öndər olub, bu istiqamətdə apardığı ardıcıl və məqsədyönlü siyasət Onun bütün fəaliyyətinin əsasını təşkil edib. Bu gün Azərbaycanda həyata keçirilən böyük layihələr məhz Heydər Əliyevin ölməz ideyalarının həmişəyaşar, əbədi olduğunu bir daha sübut edir. Ulu Öndərimizin uzaqgörənliyi, müdrikliyi və fədakarlığı bu şəxsiyyəti təkcə Azərbaycan xalqının deyil, bütün dünya azərbaycanlılarının liderliyinə yüksəldib, ömür yolu isə Vətənə xidmətin parlaq nümunəsinə çevrilib. Bütün şüurlu həyatını xalqına və Vətəninə həsr etmiş Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan xalqının tarixinə müstəqilliyimizin memarı və qurucusu kimi daxil



olub. Ulu Öndərin yorulmaz, çoxşaxəli və zəngin fəaliyyəti Azərbaycanı sürətli inkişaf yoluna çıxarıb. Ulu Öndərin hakimiyyətə gəlişi Azərbaycanın taleyini kökündən dəyişdi. Heydər Əliyev dövlət müstəqilliyinə qarşı yönəlmiş daxili və xarici təhdidlərin, Ermənistanın işğalçılıq siyasətinin qarşısının alınması üçün ilk növbədə ölkədə ictimai-siyasi sabitliyin bərqərar olması istiqamətində mühüm addımlar atdı. O, bazar iqtisadiyyatı münasibətlərinə keçidin səmərəli mexanizmini formalaşdırmaq üçün dünyanın inkişaf etmiş dövlətlərinin iqtisadi təcrübələrini nəzərə almaqla strateji vəzifələr müəyyən etdi, ölkəmizin təhlükəsizliyini və müdafiəsini təmin etmək qabiliyyətinə malik olan Azərbaycan Ordusunun formalaşdırılması yönündə fəal siyasət apardı. Eyni zamanda, Ulu Öndər Heydər Əliyevin apardığı uğurlu daxili siyasətin nəticəsində milli-mənəvi dəyərlərin, elm, təhsil, mədəniyyət və incəsənətin inkişafında dönüş mərhələsi başladı. Milli ideologiya səviyyəsinə qaldırılan azərbaycançılıq məfkurəsi ölkəmizdəki müxtəlif xalqların, dini konfessiyaların nümayəndələrinin vətəndaş həmrəyliyi şəraitində yaşamasında tarixi-siyasi əhəmiyyət daşıdı. Milli mənlik şüuru inkişaf etdi, xalqımızın öz tarixini dərindən öyrənməsi üçün əlverişli şərait yarandı.

***- Qeyd etdiyiniz kimi Azərbaycan bu gün əsası 15 iyunla qoyulan strategiya ilə böyük Zəfər yolundan keçməklə inkişaf edir. Bu baxımdan ölkəmizin inkişafı haqqında nə deyə bilərsiniz?***

- Dünya səviyyəli siyasi xadim və dövlət başçısı Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə gəlişindən, yəni 1993-cü ildən sonra ölkəmizdə gedən proseslər geniş bir təhlil, təhqiqat tələb edən məsələdir. Aparılan araşdırmalar və təhlillər Heydər Əliyevin nəhəng siyasət məktəbinin ayrı-ayrı elementlərini bir daha göz önünə gətirməyi zəruri edir. 1993-cü ilin iyun hadisələri zamanı siyasi hakimiyyətə qayıdan Heydər Əliyev, ilk növbədə, vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılması üçün ciddi və təxirəsalınmaz addımlar atıldı. Ulu Öndərin yorulmaz, çoxşaxəli və zəngin fəaliyyəti Azərbaycanı sürətli inkişaf yoluna çıxardı. Müasir müstəqil Azərbaycan dövləti Ümummilli Lider Heydər Əliyevin gərgin zəhmətinin, qətiyyətli siyasətinin bəhrəsidir. Azərbaycanın bugünkü inkişaf strategiyasının müəllifi də məhz Ümummilli Liderimizdir. Azərbaycan artıq dünyada iqtisadi inkişafın özünəməxsus modelinə sahib olan ölkə kimi tanınır və qəbul edilir. Postsovet məkanında keçid dövrünü uğurla başa vuran ilk dövlət kimi əldə edilən nailiyyət göstəriciləri düşünülmüş, məqsədyönlü siyasətin nəticələridir. Bunlar Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda həyata keçirilən siyasətin düzgünlüyünün real isbatı və daha sürətli inkişafın zəminidir. Ulu Öndər Heydər Əliyevin müstəqil dövlətimizin xarici siyasət xəttini özündə ehtiva edən bitkin taktiki və strateji konsepsiyası əsasında bu gün Prezident İlham Əliyev praqmatik və hücum diplomatiyasına söykənən siyasəti uğurla həyata keçirir. Azərbaycanın postsənaye cəmiyyətinin quruculuğu yolunda əldə etdiyi ilkin nailiyyətlər, yeni qlobal çağırışlara adekvat olaraq həyata keçirilən islahatlar, hərbi potensialın gücləndirilməsi, iqtisadi modernləşmə mərhələsinin uğurları ölkəmizin qarşıdakı illərdə də yüksəlişinin və inkişafının davamlı olacağından xəbər verir.

Ulu Öndər Heydər Əliyevin başladığı dövlət quruculuğu siyasətinin tərkibində əsas yerlərdən birini Milli Ordunun yaradılması tuturdu. 1993-cü ilə qədər hakimiyyətdə olan iqtidarların heç biri milli ordu yarada bilməmişdi. Ümummilli Lider Heydər Əliyevin qarşıya qoyduğu ən vacib və təxirəsalınmaz vəzifələrdən biri vahid komandanlığa əsaslanan ordunun yaradılması idi. Qısa zaman ərzində Müdafiə Nazirliyinin tabeçiliyində və dövlətin nəzarətində olan ordu birləşmələri yaradıldı və düşmənin hücumlarının qarşısı alındı. Azərbaycanın Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi, dərin diplomatik gedişləri ilə 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər Azərbaycanın müasir tarixinin ən şanlı səhifəsidir. Bu səhifənin yazılmasını şərtləndirən əsas amillər Ulu Öndərimiz tərəfindən qoyulan milli birliyimiz, milli həmrəyliyimiz olub.

Tam əminliklə söyləmək olar ki, bu gün Prezident İlham Əliyevin şəxsiyyəti Azərbaycanla bərabər yüksəlir və dünya miqyasında nüfuz qazanır. Prezident İlham Əliyevin Heydər Əliyev siyasətini uğurla davam etdirməsi nəticəsində Azərbaycanın gələcəkdə də böyük nailiyyətlər qazanacağı şübhəsizdir.

***- Vurğuladığınız kimi, Heydər Əliyev siyasi kursuna sadiq qalan müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevlə Azərbaycan yeni inkişaf yolunda əzmlə addımlayır. Vətən müharibəsində qazandığımız tarixi zəfər hər bir azərbaycanlıya Prezident İlham Əliyevin hərbi sərkərdəlik keyfiyyətlərini, prinsipial və qətiyyətli mövqeyini, ən ekstremal şəraitdə belə uğurlu diplomatiya yürütdüyünü bir daha sübut etdi. Bu haqda mövqeyinizi eşitmək maraqlıdır.***

- 2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatı nəticəsində başlayan müharibədə xalqımız Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandan kimi prinsipial və qətiyyətli mövqeyinin, ən ekstremal şəraitdə belə uğurlu diplomatiya yürütdüyünün bir daha şahidi oldu. 44 gün davam edən Vətən müharibəsində Azərbaycanın işğal olunmuş əraziləri cənab İlham Əliyevin Ali Baş Komandanlığı ilə erməni qəsbkarlarından azad edildi. Xalqımızın tarixinin parlaq və unudulmaz səhifələrindən birini təşkil edən bu şanlı qələbənin əsasında həm Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, həm də ondan irəli gələrək Azərbaycanın sosial-iqtisadi, siyasi, mədəni, hərbi sahələrdə uğurları, xarici siyasətdə nailiyyətləri dayanır.

Azərbaycan dövləti torpaqlarımızı erməni işğalçılarından azad etməklə bölgədə yeni reallıq yaratdı və 27 il idi ki, BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan məlum dörd qətnaməsinin tələblərini yerinə yetirdi. Şanlı qələbədən sonra Prezident İlham Əliyevin dediyi kimi, “Bizim ölkəmiz üçün yeni dövr başlayır. Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir”.

Vətən müharibəsində qazanılmış möhtəşəm qələbə Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharəti və Azərbaycan Ordusunun igid, mərd, qorxubilməz döyüşçülərinin qəhrəmanlığı nəticəsində reallaşdı. Müharibənin gedişində hərbçilərimizin əhvali-ruhiyyəsinin və mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olduğunun və döyüş tapşırıqlarını böyük uğurla yerinə yetirdiklərinin şahidi olduq.

2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən birgə Bəyanatın imzalanması Vətən müharibəsində Azərbaycanın hərbi-siyasi qələbəsini təsdiq edən tarixi hadisə oldu. Bununla da müharibənin ilk günlərindən etibarən Prezident cənab İlham Əliyevin irəli sürdüyü şərtləri Ermənistan hakimiyyətinin qəbul etməkdən başqa çıxış yolu qalmadı.

Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsindəki Qələbəyə həsr olunmuş Zəfər paradı Azərbaycan Ordusunun gücünü və qüdrətini bütün dünyaya göstərdi. Bu qələbə ilə Azərbaycan bütün dünyaya öz gücünü və haqq-ədalət uğrunda qətiyyətli mübarizəsini nümayiş etdirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrikliyi, Milli Ordumuzun gücü, cəmiyyətdəki vətəndaş həmrəyliyi nəticəsində əldə olunmuş möhtəşəm qələbə Azərbaycan tarixinin qəhrəmanlıq səhifələrindən biridir.

Prezident İlham Əliyev xalqımıza verdiyi vədə Böyük Lider kimi əməl etdi, özünün də vurğuladığı kimi ata vəsiyyətini həyata keçirdi. Qarabağı işğaldan azad etməsi ilə 30 illik həsrətimizə son qoyan Ali Baş Komandanın həm siyasi meydanda, həm də döyüş meydanında necə güclü diplomat və sərkərdə olduğuna nəinki Azərbaycan xalqı, bütün dünya bir daha şahid oldu.

***- 30 ilə yaxın Ermənistanın işğalı altında olmuş ərazilərimiz işğalçılar tərəfindən tamamilə dağıdılıb. Bu baxımdan, tarixi-dini abidələr, məscidlərimiz də erməni vəhşiliyinə məruz qalıb. Bu vandalizmin dünya ictimaiyyətinə çatdırılması üçün nə kimi addımlar atılır?***

- Məlum olduğu kimi, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan xalqına məxsus çoxəsrlik qədim tarixi-dini abidələr dağıdılaraq yerlə-yeksan edilib, onların bir qismi isə saxtalaşdırılaraq erməniləşdirilib. Təcavüzkar dövlətin bu cür vandal əməllərə əl atmaqda əsas məqsədi bizim minilliklər ərzində yaşadığımız torpaqlarda həm tarixi keçmişimizi, həm də mənəvi yaddaşımızı məhv etmək idi. Ermənistan Azərbaycan xalqına məxsus tarixi-dini abidələrə qarşı təcavüzünü müxtəlif istiqamətlərdə aparıb. Belə ki, milli mənsubiyyəti və dini ənənələri özündə əks etdirən abidələr tamamilə dağıdılıb və ya erməniləşdirilməsinə, özgələşdirilib dəyişdirilməsinə cəhdlər edilib.

İşğal altındakı müsəlman dini kimliyinə aid olan abidələr, o cümlədən digər mədəniyyət nümunələri dağıdılmaqla yanaşı, həm də təhqir olunub. Son illərdə məscidlərdə mal-qara və digər heyvanların saxlanılması faktı Qərb ölkələrinin fotomüxbirləri tərəfindən də lentə alınıb və bütün dünya ictimaiyyəti bu kadrlarla tanış olub.

Bundan başqa, Qafqaz Albaniyasına məxsus məbədlər erməniləşdirilərək qriqoryanlaşdırılıb. Azərbaycanın işğal altında olmuş

# 15 İyun Milli Qurtuluş Günü tarixə Azərbaycanın xilası günü kimi daxil olub

*YAP İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının yap.org.az-a müsahibəsi*

Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayonun ərazisində yerləşən Yuxarı və Aşağı Gövhər Ağa məscidləri (Şuşa), Saatlı məscidi (Şuşa) və Ağdamda Cümə məscidi dağıdılıb, Ağoğlan (Laçın rayonu), Xudavəng və Gəncəsər məbədləri (Kəlbəcər rayonu) erməniləşdirilərək qriqoryanlaşdırılıb. Bəzən isə ermənilər işğal etdikləri ərazilərdə yerləşən məscidlərin Azərbaycan xalqına məxsus olduğunu danaraq məkrli addımlar atıblar. Ermənilərin bu cür vandal əməllərinə Ermənistandakı tarixi Azərbaycan ərazilərində yerləşən dini abidələr də məruz qalıb. İrəvan Şah Abbas məscidi, Dəmirbulaq məscidi, Hacı Novruz Əli məscidi, Sərdar məscidi, Buğakar ziyarətgahı, Ağadədə ziyarətgahı və digər müqəddəs yerləri ermənilər tamamilə uçurub, Göy məscidin isə memarlıq xüsusiyyətlərini dəyişdirilərək özgəninkiləşdirilib.

Torpaqlarımızın işğaldan azad olunmasından sonra ortaya çıxan mənzərə düşmənin bu əraziləri tamamilə dağıtdığını göstərdi. Qədim yaşayış yerlərimizdə olan tikililər arasında dini abidələr, məscid və ziyarətgahlar da önəmli yer tutur. İşğaldan azad olunmuş ərazilərimizdə indiyədək təsbit olunan tarixi-dini abidələrdən 67-si məscid, onlarla məbəd, 192-si ziyarətgahdır. İşğaldan azad olunmuş ərazilərimizdəki 67 məsciddən (Şuşada 18, Ağdamda 5, Füzulidə 19, Zəngilanda 6, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 3, Kəlbəcərdə 2, Xocavənddə 1) 65-i tamamilə, 2-si isə qismən dağıdılaraq yararsız hala salınıb.

İşğaldan azad olunmuş ərazilərdəki dini ibadət ocaqlarının hər biri bərpa olunacaq. Azərbaycan Prezidenti İlham Əliyev öz müsahibə və çıxışlarında dəfələrlə bəyan edib ki, tarixi-mədəni, o cümlədən dini ibadət ocaqları bərpa olunub insanların istifadəsinə veriləcək. Sevindirici haldır ki, Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə 30 illik işğaldan azad olunan ərazilərimizdə ermənilər tərəfindən dağıdılan dini abidələr, məscidlərin bərpasına dair layihə üzrə işlərə başlanılıb. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən Şuşada yeni məscidin təməlinin qoyulması, Zəngilanda erməni vandallığına məruz qalan məscidin, eləcə də Ağdamda "Qiyaslı" məscidinin yenidən qurulması işlərinə başlanılması, həm də "Qazançı" kilsəsində bərpa işlərinin aparılması dövlətimizin milli-mənəvi, tolerantlıq dəyərlərinə verdiyi önəmin növbəti təzahürüdür.

***- Mübariz müəllim, hazırda din-dövlət münasibətlərində mövcud vəziyyəti necə dəyərləndirirsiniz?***

- İstənilən ölkədə ictimai-siyasi sabitlik ölkə rəhbərliyi tərəfindən aparılan siyasətə və əldə edilən iqtisadi uğurlara bağlıdır. Əgər iqtisadi inkişaf varsa, xalqın maddi vəziyyəti yaxşılaşırsa, eyni zamanda, ölkə rəhbərinin apardığı sosial siyasət xalqın maraqlarını ifadə edirsə, demək, həmin ölkədə ictimai-siyasi sabitlik davamlı, dayanıqlı olacaq. Azərbaycanda Ulu Öndərin əsasını qoyduğu uğurlu siyasi xətt bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən çox böyük uzaqgörənliklə, nailiyyətlərlə davam etdirilməkdədir. Bu gün Azərbaycan sürətlə inkişaf edir, ölkəmiz sosial-iqtisadi, siyasi sahədə ciddi işlərə imza atıb. Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz nailiyyətlər həm Azərbaycan cəmiyyətində, həm də beynəlxalq müstəvidə təqdir edilir. Azərbaycan hazırkı şəraitdə müsəlman ölkəsi olaraq dindövlət münasibətləri baxımından nümunə olacaq bir ölkədir. Bu gün Azərbaycan tolerantlıq məkanı kimi hamı tərəfindən qəbul olunur.

Azərbaycanda bütün sahələrdə olduğu kimi, dini durumla bağlı vəziyyət də sabitdir. Bu, dövlətin müəyyən etdiyi dövlət-din modelinin uğurla həyata keçirilməsi, ölkə prezidentinin müəyyən etdiyi siyasi xəttin Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi, digər müvafiq dövlət, hökumət qurumları tərəfindən ardıcıl şəkildə həyata keçirilməsinin nəticəsidir. Azərbaycan Qafqazın lider dövlətidir. Lakin ölkəmiz dünyada baş verən hadisələrdən heç də kənarda qalmır. Yəni həm ictimai-siyasi sabitlik, həm də insanların hüquq və azadlıqlarının təmin edilməsi baxımından regionun öndə gedən bir ölkəsi olaraq bizimlə həmsərhəd olan, o cümlədən, bir hissəsi olduğumuz İslam coğrafiyasında baş verən istənilən hadisə bilavasitə bizə də öz təsirini göstərir.

Amma bütün bunlara baxmayaraq, Azərbaycan yenə də təhlükəsiz, o cümlədən din sahəsində həyata keçirilən siyasətin nəticələrinə görə sabit ölkədir və bizim üçün bu təhdidlər ümummilli və ümumdövlət maraqlarımız baxımından böyük təhlükə törədən təhdidlər deyil. Yəni vaxtında hüquq-mühafizə orqanları, ideoloji iş aparan qurumların xətti ilə, eləcə də dövlətin apardığı siyasət nəticəsində bu təhdidləri minimuma endirilib.

# Ağdamda növbəti qələbəni qazandıq

**Beləliklə, kütləvi dağıntı və talanlara məruz qalan və Qafqazın Xirosiması adlandırılan Ağdamın mina xəritələri Ermənistan tərəfindən Azərbaycana təhvil verildi - nə az, nə çox - düz 97 min basdırılmış mina!**

**Lakin burada qeyd etmək lazımdır ki, 97 min minanın basdırıldığı xəritələrin verilməsi həm də minimum 97 min (daha da çox ola bilərdi) insanın həyatının təhlükədən xilası deməkdir. Ancaq ən əsası, bu Azərbaycanın 44 günlük müharibədən zəfərlə ayrılmasından sonra, dövlətimizin düşmən üzərində ikinci qələbəsidir - həm siyasi, həm də mina müharibəsində.**

## Azərbaycan ərazilərinin minalanması prosesini qondarma "DQR" rejimi deyil, Ermənistan həyata keçirib

Buna qədər isə Ermənistan rəhbərliyi hər dəfə müxtəlif bəhanələrlə mina xəritələrinin onlarda olmadığını iddia edirdi, amma sübut olundu ki, nəinki Ağdamda, eləcə də digər azad edilmiş bölgələrimizdə basdırılmış minaların xəritələri düşməndə mövcuddur. Bu baxımdan, artıq indi Ermənistan özündən "günahsız quzu" obrazını düzəldə bilməyəcək.

Başqa tərəfdən, bu faktın daha bir əhəmiyyəti ondadır ki, mina xəritələri məhz Ermənistandadır və əslində heç bir "DQR" adlı "quruluş" mövcud deyil. Eyni zamanda, Azərbaycan ərazilərinin minalanması prosesini də Ermənistan həyata keçirib. Bu arada onu da xatırlatmaq olar ki, Ermənistan müharibədə məğlubiyyətdən sonra əsas xətt kimi mina xəritələrini verməməklə Azərbaycana qarşı şantaj və terror siyasəti ilə davranırdı.



## Qarabağ azad olunduqdan sonra minaların partlaması səbəbindən şəhid və yaralıların sayı 100 nəfəri keçib

Ancaq burada digər məqamlara da diqqət yetirmək yerinə düşərdi. Yəni mina xəritələri yalnız torpaqlarımızın bir hissəsini əks etdirir və Nikol Paşinyan da bunu etiraf edib. "Ermənistan Azərbaycana minalı ərazilərin yalnız böyük olmayan xəritəsini verib", deyə o bildirib. Ölkəsinin baş naziri vəzifəsini müvəqqəti icra edən bu şəxsin görünür, 15 nəfər terrorçu-diversantın onlara təhvil verilməsindən sonra ağzı daha da sulanıb. Qarabağ azad olunduqdan sonra minaların partlaması səbəbindən şəhid və yaralıların sayı 100 nəfəri keçib. Tökülən bu qanların da hesabı terrorçu Ermənistan dövlətinin boynundadır.

Ancaq daha dəqiq desək, erməni tərəfi hələ də ümid edir ki, ərazilərimizdə hərbi cinayətlər törətmiş şəxslərin digər hissəsini də azad etdirib, sonra yerdə qalan xəritələri də Azərbaycan tərəfinə təhvil verəcək. Üstəlik, 30 il müddətində torpaqlarından, yurdlarından didərgin düşmüş vətəndaşlarımızın geri qayıtma prosesləri də maksimum gecikdiriləcək.

## Əks halda Ermənistan bir ölkə olaraq bütövlükdə süqutauğrama təhlükəsindən yaxasını qurtara bilməyəcək

Amma əbəs yerə, çünki bugünlərdə bir sıra ölkələrin Azərbaycana təyin edilmiş yeni xarici səfirlərini qəbul edən Prezident İlham Əliyev qətiyyətlə vurğuladı ki, ölkəmiz Ermənistanda sülh müqaviləsi imzalamağa hazırdır, lakin erməni tərəfi yenidən zidd davranışlar sərgiləyərsə, payızda aldığı ağır zərbələrdən daha ağırlarına məruz qalacaq. Yəni əks halda Ermənistan bir ölkə olaraq bütövlükdə süqutauğrama təhlükəsindən yaxasını qurtara bilməyəcək. Bu, faktdır və reallıqdır!

İndi Ermənistan daha yalan danışmaq və inadkarlıq etmək imkanlarını itirdikcə, mövcud gerçəklikləri dərindən anlamağa başlayıb. O, buna məcbur olub - Azərbaycanın Ağdamda qazandığı növbəti qətiyyətli qələbəsindən sonra...

***Rövşən RƏSULOV***




# Həcc ziyarətinə kimlər gedə biləcək?

**"Həcc ziyarəti ilə bağlı zaman-zaman müxtəlif müzakirələr aparılır". Bu sözləri SİA-ya açıqlamasında deputat Ceyhun Məmmədov deyib. Onun sözlərinə görə, məhdudiyyətlərin tətbiq olunması ilə bağlı addımların atılması nəticəsində bu gün də məlum oldu ki, Səudiyyə Ərəbistanda ümumiyyətlə xaricdən gələn zəvvarların Həcc mərasiminin yerinə yetirilməsinə icazə vermir: "Bunun da obyektiv və subyektiv səbəbləri var. Bu gün ölkəmizdə biz bunu təmin etmişik. O mənada ki, virusa yoluxma azdır. Amma bizim gözümüzün qarşısında bəzi nümunələr var. Bu gün Səudiyyə Ərəbistanı ona görə narahatdır ki, ora gələrək virusda artım olsun".**

Deputat həmçinin qeyd edib ki, dünyanın hər yerində də demək olar ki, müsəlmanlar yaşayır: "Səudiyyə Ərəbistanına bir neçə milyon insan gəlir. Bu bir neçə milyon insan əlaqədə olur, mərasimi yerinə yetirir. Nəzərə alsaq ki, təvaf edərkən insanlar bunu sıxlıqda edirlər. Hesab edirəm ki, bu qərarın qəbul edilməsi anlaşılandır və məntiqidir. Bu təhlükədən sığortalanmaq üçün gələcəkdə insanların xəstələnməməsi üçün bu addımlar atılmalıdır. İndi ölkə daxilində bunu tənzimləmək asandır. Çünki bir çox ölkələr öz sərhədlərini bağlayıblar. Səudiyyə Ərəbistanında da insanların gəlib Həcci yerinə yetirməsi normaldır. İndiki vəziyyətdə bu düzgün qərardır. Ora gedən insanlar yoluxacaq və ölkələrinə qayıtdıqda öz vətəndaşlarına yoluxdura bilərlər".

# Zəfərimiz Qurtuluşdan başlanan yolun zirvəsidir



***- Sudeyf müəllim, Azərbaycan xalqının taleyində böyük əhəmiyyət kəsb edən, tariximizə qızıl hərflərlə yazılan 15 İyun-Milli Qurtuluş Gününü qeyd edirik. Hər bir tarixi gün özündə müəyyən məqamları ehtiva edir. Qurtuluşa gedən yolu necə xarakterizə edərdiniz?***

- Əbəs yerə zaman hadisələrə ən böyük dəyəri vermək üçün zəngin mənbə kimi dəyərləndirilmir. İllər keçdikcə baş verən hadisələrin mahiyyəti daha dərindən dərk olunur, lazımı səviyyədə dəyərləndirilərək bugünümüz və gələcəyimiz üçün əhəmiyyəti geniş şəkildə təbliğ edilir, nəsildən nəslə ötürülür. 1993-cü ilin 15 iyun tarixi xalqımızın yaddaşına əsl Qurtuluş tarixi kimi yazılıb. Bu tarixi yaradan isə ulu öndər Heydər Əliyevdir. "Müasir müstəqil Azərbaycan Ümummilli Liderin şah əsəridir" tezisi də məhz həmin dövrün reallıqları əsasında formalaşaraq bugünkü günümüzdə atılan addımların əsasında dayanır.



**Yeni Azərbayan Partiyasının Veretanlar Şurasının üzvü, tibb elmləri doktoru, professor Sudeyf İmamverdiyevin yap.org.az-a müsahibəsi**

Dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətinin hər iki dövrü dövlətə, xalqa xidmət nümunəsidir. Əgər hakimiyyətinin birinci dövründə Azərbaycanı keçmiş İttifaqın ən geridə qalmış ölkəsindən ən qabaqcıl respublikasına çevirmişdisə, 1993-cü ildə xalqın təkidli tələbi ilə hamiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirərək ölkəmizi müstəqilliyini itirmək, dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən xilas etdi. Məlumdur ki, XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycanın, Azərbaycan xalqının sevinci uzun sürmədi. Azərbaycan müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdi. Müstəqilliyimizin ilk illərində ölkəmizə rəhbərlik edənlərin səriştəsizliyi, idarəçilik qabiliyyətlərinin yoxluğu, hakimiyyət hərisliyi, ən əsası şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutmaları ölkədə hakimiyyət böhranını kulminasiya həddinə çatdıdı, xaos, anarxiya, özbaşınalıqlar, iqtisadi böhran respublikanı bürüdü. Vətəndaş müharibəsi yaşanaraq qarşıdurmalar nəinki dövlət müstəqilliyimizi, milli varlığımızı belə hədəfə aldı. 1991-ci ildən 1993-cü ilin iyununadək olan dövr Azərbaycanın müasir tarixində hərc-mərclik, xaos, özbaşınalıq dövrü kimi xarakterizə olunur. Azərbaycanın xilaskarı kimi tanınan və nüfuz qazanan ulu öndər Heydər Əliyev müstəqilliyimizin həmin illərini belə xarakterizə etmişdir: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Müstəqilliyimizin ilk illərində digər sahələr kimi ordu quruculuğunda da uğursuzluqlar, pərakəndəlik böyük faciələrə yol açdı. Həmin dövrdə Azərbaycan Silahlı Qüvvələri torpaqlarımızın deyil, ayrı-ayrı dairələrin maraqlarının müdafiəçisinə çevrilmişdi. Bu səbəbdən torpaqlarımızın Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, həmçinin getdikcə gərginləşən siyasi vəziyyət, iqtisadi böhranın dərinləşməsi fonunda əhalinin sosial durumunun günbəgün ağırlaşması, ümumiyyətlə, xalqın sabaha ümidlərinin tamamilə itməsi ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir Liderə ehtiyac olduğunu şərtləndirirdi. Bu gün ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayan, milyonların partiyası imicini qazanan Yeni Azərbaycan Partiyasının "qızıl fondu" kimi dəyərləndirilən "91-lər"in üzvü kimi onu da qeyd etməliyəm ki, həmin dövrün reallıqları dahi şəxsiyyətə Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı ünvanlanan "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciətində də öz əksini tapmış və qeyd edilmişdir ki, xalqımızı bu çətin vəziyyətdən Sizin kimi zəngin idarəçilik təcrübəsinə malik şəxs xilas edə bilər. Ümummilli Liderin həmin müraciətə cavabında Azərbaycanın müstəqilliyi tarixi nailiyyətimiz kimi dəyərləndirilərək onun qorunması hər kəsin vətəndaşlıq borcu kimi diqqətə çatdırılmışdı.

1993-cü ilin iyununda ölkəmizin başı üzərini qara buludlar alanda cəmiyyətin bütün təbəqələri tam əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Xalqımız Ümummilli Liderin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi. Beləliklə, 1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı, ölkəmizi bəlalardan, çətinliklərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı uğurlu gələcəyə aparan yol bilavasitə həmin gündən başlandı. İyunun 15-də ulu öndər Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi, Azərbaycanın xilaskarlıq missiyasını böyük cəsarətlə öz üzərinə götürərək bugünkü uğurların, güclü, qüdrətli Azərbaycanın möhkəm təməlini yaratdı.

***- 30 ilə yaxın müstəqillik tariximizi hansı mərhələlərə bölmək olar? Qurtuluş Azərbaycana hansı uğurları qazandırdı və nələri vəd etdi?***

- Müstəqillik yollarında ilk addımların atan hər bir dövlətin qarşısında dayanan əsas vəzifələrdən biri ictimai-siyasi sabitliyin qorunması, iqtisadiyyatın inkişafı və bu fonda beynəlxalq təqdimatın yüksək səviyyədə həyata keçirilməsi təsdiqidir. Ümummilli lider Heydər Əliyevin də irəli sürdüyü əsas tezislərdən biri bu oldu ki, əgər respublikada ictimai-siyasi sabitlik, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz.

Ulu Öndərin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində ölkəmizdə sabitlik yarandı, malik olduğumuz təbii resurslardan səmərəli istifadənin təmin edilməsi üçün mühüm addımlar atıldı. Dahi şəxsiyyətin iqtisadiyyatın inkişafında neft amilinə önəm verməsi uzaqgörən siyasətinin nəticəsi idi. Ümummilli lider Heydər Əliyevin gərgin səyləri nəticəsində 1994-cü il mayın 12-də cəbhə xəttində atəşkəs əldə olundu. Bu mühüm addım ölkədə sabitliyin yaradılmasında mühüm amilə çevrildi. Elə həmin il sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi yazılan neft sazişi imzalandı. Bununla da Azərbaycanın dayanıqlı inkişafının, dünya iqtisadi sisteminə inteqrasiyasının əsası qoyuldu. Bu gün Azərbaycan ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurlarını yaşayır.

Dövlətçiliyimizin əsasları yaradıldı. 1995-ci il noyabr ayının 12-də Milli Konstitusiyamız qəbul olundu. Azərbaycanda demokratik cəmiyyətin varlığını təsdiqləyən bütün atributlar-insan hüquqlarının qorunması, azad mətbuatın yaranması, çoxpartiyalı sistemin formalaşması, seçkilərin demokratik, azad və beynəlxalq standartlara uyğun keçirilməsi və sair kimi amillər bərqərar oldu.

Ümummilli Liderin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycanın ətrafında yaradılan informasiya blokadası yarıldı. Müstəqilliyimizin ilk illərində Azərbaycan haqqında məlumatsızlıq ucbatından ayaq tutub yerimək imkanı qazanan erməni yalanları faktlar əsasında ifşa edildi, ölkəmizlə bağlı həqiqətlər beynəlxalq ictimaiyyətə çatdırıldı. Dağlıq Qarabağ münaqişəsinin həlli Azərbaycanın xarici siyasətinin əsas məsələsi kimi öndə dayandı. Məsələnin sülh danışıqları əsasında həllinə səy göstərən ulu öndər Heydər Əliyev bu tezisi də irəli sürdü ki, sülh danışıqlarını cəsarətlə aparmaq üçün güclü, qüdrətli ordunun olması əsasdır. Bu məqamı da xüsusi qeyd etmək yerinə düşər ki, Ümummilli Lider hələ hakimiyyətinin birinci dövründə Azərbaycanı gələcəkdə müstəqil görmək istəyini nümayiş etdirərək bunun üçün zəruri addımlar atmışdı. Həmin illərdə Cəmşid Naxçıvanski adına hərbi liseyin əsasının qoyulması, ölkəmizin gələcəkdə kadr potensialının artırılması üçün gənclərin keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilməsi də bu addımlar sırasındadır.

Bir sözlə, bugünkü uğurlarımızın başlanğıcı kimi dəyərləndirilən Milli Qurtuluş Günü Azərbaycana böyük uğurlar qazandırdı və bu gün də qazandırmaqdadır. "Qurtuluş Azərbaycana nə verdi" sualının ümumiləşdirilmiş cavabı budur ki, Azərbaycanın dövlət müstəqilliyinin daimiliyi, sarsılmazlığı təmin edildi. Bu reallıq inkaredilməzdir ki, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qorumaq, daimi və əbədi etmək ondan da çətindir. Bu fikirlər ulu öndər Heydər Əliyevin aforizmə çevrilən tezislərində də öz əksini tapıb. Azərbaycanın müstəqillik tarixinə baxış, tarixi paralellər fonunda ayrı-ayrı dövrlərin təhlilini aparmaq hər birimizin gündəlik fəaliyyətimizin əsasında dayanmalıdır. Hazırkı və gələcək nəsil müstəqillik yolumuzun çətinlikləri barədə dolğun məlumata malik olmalı, uğurlarımızın böyük səylərin, qətiyyətin nəticəsi olduğunu bilməlidirlər.

***- Sudeyf müəllim, Qurtuluşun qazandırdığı uğurlar fonunda böyük fəxr hissi ilə bəhs etdiyimiz müstəqillik tariximizin 2003-cü ildən başlanan dövrünü səciyyələndirən əsas amillər hansılardır?***

- Ümummilli Lider 2003-cü ildə xalqa müraciətində bu məqamı böyük inam hissi ilə qeyd etmişdir ki, İlham Əliyev onun sona çatdıra bilmədiyi işləri xalqın dəstəyi ilə həyata keçirəcək. 2003-cü ildə keçirilən prezident seçkilərində xalqın böyük əksəriyyətinin səsini qazanan cənab İlham Əliyev bildirmişdir ki, Azərbaycanın daha da qüdrətli dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasəti davam etdirilməlidir. Son 18 ilə yaxın dövrün reallıqlarının təhlili bu vədin konkret əməli işdə öz təsdiqini tapdığını göstərir. Azərbaycan bütün sahələrdə davamlı uğurlara imza atır, xalq-iqtidar birliyi bütün uğurların təməlində dayanır. Məhz bu amillər cənab İlham Əliyevin 2008, 2013 və 2018-ci illər prezident seçkilərində qələbəsini təmin etməyə stimul oldu. Dövrün reallıqlarına uyğun atılan addımlar, təkmilləşmə, yeniləşmə, Azərbaycan brendi kimi dünyaya səs salan layihələrin icrası, dayanıqlı iqtisadi inkişafın təmin edilməsi, sosial müdafiənin gücləndirilməsi, demokratik prinsiplərin qorunması, diplomatik mübarizədə qələbələr, dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşan Silahlı Qüvvələrimizin formalaşdırılması, dünyanın inkişaf etmiş ölkələri arasında olmaq istəyimizə uyğun olaraq atılan addımlar və buna nail olunması, yeni dostların, tərəfdaşların qazanılması və sair kimi mühüm hadisələr son 18 ilə yaxın dövrün reallıqları və uğurlarıdır. Onların zirvəsində Azərbaycanın Zəfəri dayanır. Məhz son 18 ilə yaxın dövrü Qələbəyə hazırlıq dövrü kimi də xarakterizə etmək olar.

Təbii ki, Milli Qurtuluşdan tarixi Zəfərimizə qədər olan dövrün uğurlarını bir müsahibədə əhatə etmək qeyri-mümkündür. Bu reallığı bir daha böyük qürur hissi ilə qeyd edirik ki, ulu öndər Heydər Əliyev adını Azərbaycan tarixinə dövlətimizin, xalqımızın xilaskarı, möhtərəm Prezidentimiz İlham Əliyev qalib ölkənin qalib Sərkərdəsi kimi yazdı. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Qarabağın tacı Şuşanın işğaldan azad edilməsi müjdəsini xalqa çatdırarkən söylədiyi bu fikirləri bir daha qeyd etmək istərdim: "Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

***- Sudeyf müəllim, bu il Milli Qurtuluş Gününü zəfər sevincimizlə qeyd edirik. Postmüharibə dövrünün reallıqlarını necə səciyyələndirirsiniz? Azərbaycanın qarşısında hansı imkanlar yaranıb?***

- Son 7 ayda Azərbaycan həyatının yeni dövrünü-işğaldan azad edilmiş torpaqlarımızda bərpa və quruculuq mərhələsini yaşayır. Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu işğala son qoydu, ərazi bütövlüyümüzü təmin etdi, soydaşlarımızın Böyük Qayıdışına yol açdı. Bu gün işğaldan azad edilmiş ərazilərimizin əvvəlki həyatlarına qayıtmaları üçün bütün zəruri işlər görülür, Qarabağımızın cənnətməkana çevrilməsi əsas hədəflərimizdəndir. Azərbaycanın hər bir bölgəsi zəngin potensiala malikdir. Cənab İlham Əliyevin 2003-cü ildən irəli sürdüyü "Neft kapitalını insan kapitalına çevirək" tezisinə uyğun olaraq regionların malik olduğu potensialdan səmərəli istifadə etmək məqsədilə icra edilən Dövlət Proqramları çərçivəsində işğaldan azad edilmiş ərazilərimizdə də lazımı işlər görülməklə yanaşı, onların da ehtiyatlarından istifadə olunacaq, Azərbaycanın dayanıqlı inkişafı sürətlənəcək, yeni-yeni hədəflər müəyyənləşdiriləcək. Hər dövrün öz tələbi var. Postmüharibə dövrünün hədəflərini özündə ehtiva edən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" gələcək inkişafın yol xəritəsidir. Zəfərin mübarək, Azərbaycan! Qurtuluşun Azərbaycana vədləri sırasında yer alan ərazi bütövlüyümüzün təmin edilməsi vaxtilə itirilmiş qürurumuzun özümüzə qayıtması ilə yanaşı, gələcəyə daha böyük inamla addımlamağımıza stimuldur.

# Milli Qurtuluş Günündən başlanan yüksəlişin zirvəsi:

# Tarixi Zəfərimiz

Tariximizə Milli Qurtuluş Günü kimi yazılan 15 iyun 1993-cü ildən bizi 28 illik zaman ayırır. Xalqımız bu il Milli Qurtuluş Gününü tamamilə fərqli ovqatda, fərqli hədəflərlə, arzu və istəklərlə qeyd edir. Çünki möhtəşəm Zəfərimizlə bu tarixi günü əsl toy-bayram ovqatı ilə qarşılayır, o həlledici gündən ötən 28 ilin Azərbaycan dövlətinin və xalqının həyatında hansı mühüm hadisələrlə yadda qaldığını təhlil edir və ümumiləşdirilmiş şəkildə "Gözün aydın, Azərbaycan! Gözün aydın, Azərbaycan xalqı! Zəfəriniz mübarək!" deyirik. 30 ilə yaxın müddətdə yurd həsrəti, torpaq sevdası ilə yaşayan xalqımız üçün bundan böyük xoşbəxtlik ola bilməz. Artıq çağdaş dünya tarixinə ən mükəmməl hərbi əməliyyatlar dövrü kimi düşən 44 günlük İkinci Qarabağ savaşında qazandığımız möhtəşəm Qələbə sayəsində 30 ilin torpaq həsrətinə, nisgilinə son qoyuldu, ərazi bütövlüyümüz bərpa olundu, dünya bir daha Azərbaycanın hansı imkanlara malik olduğuna şahidlik etdi. Müqəddəs Vətən müharibəsində Azərbaycan xalqı yenilməz, məğrur xalq olduğunu nümayiş etdirdi. 30 ilə yaxın düşmən tapdağı altında qalan həmin ərazilərimiz bu gün tarixi sahiblərinə qovuşduqları üçün sevinclidir, qürurludur. Mənfur düşməndən təmizlənmiş cənnət Qarabağımızda artıq yeni həyat başlayıb. 30 ilə yaxın torpaq həsrəti ilə yaşayan soydaşlarımız Böyük Qayıdışı gözləyir. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan, qalib ölkənin qalib Lideri, Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizə davamlı səfərləri ilə bu torpağın sahibinin Azərbaycan xalqı olduğunu bir daha təsdiqləyir. Torpaqlarımız şəhidlərimizin qanı-canı bahasına işğaldan azad edildi. Şəhidlərimizin ruhu qarşısında baş əyir, qazilərimizə Allahdan şəfa diləyirik. Azərbaycan igid oğulları "Ömürdən pay olar, Vətəndən pay olmaz," deyib "Dəmir yumruq" əməliyyatını uğurla başa çatdıraraq tarixi torpaqlarımızda üçrəngli bayrağımızın dalğalanmasını, Qarabağın döyünən ürəyi Şuşamızın özümüzə qayıtmasını, Cıdır düzündə 28 ildən sonra Novruz tonqallarının alovlanmasını, "Xarıbülbül" musiqi festivalının keçirilməsini, bu məkandan muğamlarımızın səslənməsini, Şuşa və digər məscidlərimizdə azan səsinin eşidilməsini, bir sözlə, illərdir səbirsizliklə gözlədiyimiz, sıralandıqca bitib tükənməyən arzularımızı gerçəkliyə çevirdilər. Azərbaycanı daim irəliyə aparan milli ruh, vətənpərvərlik hissi, torpaq, Vətən sevgisi 44 günlük İkinci Qarabağ müharibəsində Qələbəmizi şərtləndirən başlıca amil oldu.



**Vüqar Rəhimzadə,**
*"91-lər"in üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru, Əməkdar jurnalist*

Bu Qələbənin müəllifi 15 iyun 1993-cü il tarixini Milli Qurtuluş Günü kimi əbədiləşdirən, Azərbaycanın müstəqilliyinin sarsılmazlığını təmin edən, xalqımızın xilaskarı, ulu öndər Heydər Əliyevin siyasi kursunu son 18 ilə yaxın dövrdə bütün istiqamətlərdə uğurla davam etdirən möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevdir. Cənab İlham Əliyev Zəfərimizin baş memarı və əsas hərəkətverici qüvvəsi olmaqla Azərbaycan tarixinə adını qalib Sərkərdə kimi qızıl hərflərlə yazdı.

Bu gün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı Milli Qurtuluş Gününü tarixi Zəfərimizlə qeyd etmək xoşbəxtliyini xalqımıza yaşadan Müzəffər Ali Baş Komandan İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusuna minnətdarlığını ifadə edir, belə güclü, qüdrətli ölkənin vətəndaşı olmaqdan qürur hissi keçirdiyini bildirir, ölkə Prezidentinin ətrafında sıx birləşməklə Qarabağımızı cənnətməkana çevirmək üçün səylərini birləşdirir. Tarixi Zəfərinə yol açan Milli Qurtuluş Günün mübarək, Azərbaycan!

Əbəs yerə deyilmir ki, hadisələrə ən böyük dəyəri zaman özü verir. Eyni zamanda, zaman keçilən yolun düzgün təhlili və perspektivlərin müəyyənləşdirilməsi baxımından zəngin mənbədir. Tarixə nəzər salaq.

## Azərbaycanın inkişafının və yüksəlişinin əsas istinad nöqtəsi

Məlumdur ki, Azərbaycan 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini yenidən bərpa etdi. Bununla da Azərbaycan xalqı çoxəsrlik dövlətçilik tarixinə söykənərək yenidən milli azadlığına, dövlət müstəqilliyinə nail oldu. Amma müstəqilliyin qorunmasının onun əldə edilməsindən nə qədər çətin olduğunu sonrakı hadisələr bir daha təsdiqlədi. Çünki müstəqilliyimizin ilk 2 ilində bir neçə dəfə hakimiyyət dəyişikliyi yaşamış Azərbaycan xalqı səriştəsiz, milli hiss və duyğulardan uzaq üzdəniraq "liderlərin" rəvac verdikləri daxili çəkişmələrdən, vətəndaş müharibəsi təhlükəsindən, xaosdan, anarxiyadan, Ermənistanın işğalçılıq siyasətindən, nəhayət, dövlət idarəçiliyindən bixəbər iqtidarın özbaşınalığından sabaha ümidini itirmişdi. Hakimiyyətlə xalq arasında uçurum yaranmışdı. Bu hallar ölkədə separatizmin baş qaldırmasına, Azərbaycanın parçalanmasına və hər an müstəqilliyini itirmək təhlükəsinin reallaşmasına gətirib çıxarırdı. Təbii ki, istər zor gücünə hakimiyyəti zəbt etmiş AXC-Müsavat iqtidarı, istərsə də geniş xalq kütləsi çox yaxşı bilirdi ki, hadisələr belə davam edə bilməz. Xalq ayağa qalxaraq öz xilaskarına- ulu öndər Heydər Əliyevə üz tutdu. Azərbaycanın o zamankı rəhbərləri də dahi şəxsiyyəti Bakıya dəvət etməyə məcbur oldular. Ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Həmin vaxt Gəncə hadisələri yaşanır, ayrı-ayrı siyasi qruplaşmaların məqsədləri naminə qardaş qanı axıdılırdı. Məhz ulu öndər Heydər Əliyev xalqının xilası naminə həyatını təhlükəyə ataraq Gəncəyə getdi, vəziyyətlə ətraflı tanış oldu, şəhər sakinləri və hərbi qulluqçularla görüşdü. Ümummilli Lider iyunun 15-də respublika Ali Sovetinin növbəti iclasında Gəncə hadisələri barədə qəti fikrini bildirdi. Bu sessiya belə bir mühüm məqam ilə də yadda qaldı ki, ulu öndər Heydər Əliyev səs çoxluğu ilə Azərbaycan Ali Sovetinin Sədri seçildi. Əgər Heydər Əliyev o məqamda Azərbaycan rəhbərliyinə gəlməsəydi, bu gün Azərbaycan adlı bir dövlətin dünya siyasi xəritəsində mövcudluğundan belə söhbət gedə bilməzdi. Ona görə də 1993-cü il əslində müstəqilliyimizin ilk ili oldu. Məhz Heydər Əliyevin qətiyyəti, cəsarəti, dövlətçilik təcrübəsi, dünyagörüşü, düşünülmüş və gələcəyə hesablanmış siyasəti nəticəsində Azərbaycan o ağır vəziyyətdən çıxdı, ölkədə sabitlik yarandı və inkişaf dövrü başlandı.

Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışı dövlətçilik tariximizin şanlı qürur səhifəsini təşkil edir. Bu tarixi gün, eyni zamanda, Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması, dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət kimi tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir. Hər bir dövlətin inkişafında və tərəqqisində siyasi sabitliyin əsas amil olduğunu önə çəkən ümummilli lider Heydər Əliyev Azərbaycanı o illərin xaosundan, anarxiyasından, özbaşınalıqlarından xilas etdi. Ulu öndər Heydər Əliyev bütövlükdə Ermənistanın işğalçılıq siyasətinin qarşısını almaq məqsədilə bütün resursları səfərbər edərək 1994-cü il mayın 12-də təcavüzkar dövləti və havadarlarını atəşkəs haqqında sazişi imzalamağa məcbur etdi. Azərbaycanın inkişafı naminə Heydər Əliyevin ətrafında sıx birləşən xalq isə dahi şəxsiyyəti müdafiə edən siperə çevrildi. Məhz formalaşmış xalq-Heydər Əliyev birliyi xarici anti-Azərbaycan dairələrinin dəstəyi ilə 1994 və 1995-ci illərdəki dövlət çevrilişlərinə cəhdlərin qarşısını aldı.

1995-ci il noyabrın 12-də ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə yaradılmış komissiya tərəfindən hazırlanan və ümumxalq səsverməsi yolu ilə Azərbaycanın Konstitusiyası qəbul edildi. Bununla da Azərbaycan demokratik, hüquqi, sivil dəyərlərə malik ölkə olaraq milli kimliyini beynəlxalq aləmə təqdim etdi.

Ümummilli Lider "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" tezisini irəli sürərək iqtisadiyyatımızın inkişafında neft amilinə yüksək önəm verdi. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Neft sənayesini iqtisadiyyatın onurğa sütunu kimi dəyərləndirən ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyası bugünümüz və gələcəyimiz üçün hesablanmış addımlar sırasındadır. Azərbaycanın neft-qaz sənayesinə qoyulan sərmayə, yaradılmış əlverişli investisiya iqlimi, güclü siyasi iradə və qurulan möhkəm beynəlxalq əməkdaşlıq bugünkü reallıqları mümkün etdi.



Onu da qeyd edək ki, ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə yaratdığı Dövlət Neft Fondu neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycanın əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edir. Fond Ümummilli Lider tərəfindən əsası qoyulmuş uğurlu neft strategiyasının ayrılmaz hissəsidir. Qurumun yaradılması fəlsəfəsinin əsas qayəsini neft sərvətlərinin nəsillər arasında ədalətli bölünməsinin təmin edilməsi təşkil edir. Hazırda Dövlət Neft Fondunun vəsaitləri hesabına biri-birindən əhəmiyyətli sosial-iqtisadi layihələr həyata keçirilir ki, bu da öz növbəsində ölkəmizin hərtərəfli inkişafını təmin edir.

***Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin "Azərbaycan dünyaya Günəş kimi doğacaq" müdrik kəlamı bugünkü reallıqlarımızda bir daha özünü təsdiqləyir***

Ümumilikdə, əhalinin sosial müdafiəsinin gücləndirilməsi ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasətinin əsas xəttini təşkil edirdi. Daim xalqına güvənən, onun gücünə, müdrikliyinə arxalanan Ümummilli Lider iqtisadi islahatların əsasında vətəndaş amilini saxlamaqla, sosial problemləri aradan qaldırdı.

Qurtuluşun Azərbaycana qazandırdığı uğurlar sırasında Azərbaycanın demokratik təsisatlarının yaradılmasını xüsusi qeyd etməliyik. Ulu öndər Heydər Əliyev bildirirdi ki, demokratiya bizim strateji kursumuzun əsas mahiyyətini təşkil edir. Azərbaycan demokratiya yolu ilə gedir və gedəcək. Heç bir qüvvə bizi bu yoldan döndərə bilməz. Demokratik cəmiyyətin mövcudluğunu təsdiqləyən amillərin ölkəmizdə bərqərar olunması istiqamətində atılan biri-birindən əhəmiyyətli addımlar dövlətimizin bu məqsədin gerçəkləşməsində maraqlı olduğunu təsdiqlədi. Ölkədə söz, mətbuat azadlığının təmin olunması, insan hüquqlarının qorunması, çoxpartiyalı sistemin yaradılması, plüralizmin təmin edilməsi, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi üçün zəruri tədbirlərin görülməsi bir daha təsdiqlədi ki, Azərbaycanda demokratiya prinsiplərinə sadiqlik sözdə deyil, əməldədir. Milli Konstitusiyamızın bütün maddələrində insan amilinə diqqət, dövlətçiliyin möhkəmləndirilməsi üçün vətəndaşların üzərinə düşən vəzifələr tam aydınlığı ilə müəyyənləşdirildi.

Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmünün ləğv olunması, Amnistiya aktları və əfv Fərman və sərəncamları ilə azadlıqdan məhrum edilmiş minlərlə məhbusun cəzasının çəkilməmiş hissəsindən azad olunması insan amilinə diqqətin nümunəsi kimi dəstəkləndi. Ulu öndər Heydər Əliyevin Fərmanı əsasında senzuranın ləğvi sözün həqiqi mənasında azad, müstəqil mətbuatın formalaşmasında həlledici rol oynadı. 1998-ci ilin 6 avqustunda "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanın imzalanması ilə ölkə mətbuatının inkişafında yeni bir mərhələnin başlanğıcı qoyuldu. Ulu öndər Heydər Əliyevin azad mətbuatın inkişafına göstərdiyi diqqət və qayğının davamlılığının nəticəsi idi ki, O, 2002-ci ildə "Jurnalistlərin dostu" mükafatına layiq görüldü.

*Ardı Səh. 12*

Əvvəli Səh. 11

# Milli Qurtuluş Günündən başlanan yüksəlişin zirvəsi:

# Tarixi Zəfərimiz

Ümummilli Liderin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətləri sırasında bu gün milyonların partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının yaradılmasını xüsusi qeyd etməliyik. Partiyanın zamanın tələbi, xalqın istəyi ilə yaranması o illərin reallıqlarının aydın mənzərəsini yaradır. 91 nəfər ziyalının xalqın böyük əksəriyyətinin istəyini özündə ifadı edən “Azərbaycan Sizin sözünüzü gözləyir” müraciəti tarixə mühüm hadisə kimi yazıldı. Ümummilli Lider “Yeni Azərbaycan uğrunda” cavabı ilə xalqla bir olduğunu növbəti dəfə nümayiş etdirdi, Azərbaycanın düşdüyü vəziyyətdən xilasında belə bir partiyanın böyük rol oynacağına əminliyini ifadə etdi. Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaransa da hazırkı radikal müxalifətdən fərqli olaraq dövlətçiliyə müxalifətdə dayanmadı, ölkəmizin inkişafına dəstək oldu. Qısa zamandan, 7 ay sonra ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanla yanaşı, Yeni Azərbaycan Partiyasının da həyatında yeni mərhələnin əsasını qoydu. Partiya iqtidar partiyası kimi fəaliyyətini davam etdirdi.

Azərbaycanın demokratik dəyərlərə sadiqliyini sözdə deyil, əməldə təsdiqləməsinin nəticəsi idi ki, ölkəmiz 2001-ci ilin yanvarında dünyanın nüfuzlu təşkilatlarından olan Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul olundu. Atılan bu və digər addımlar demokratiyanın Azərbaycan xalqının həyat tərzi olduğunu təsdiqlədi.

Qurtuluş Azərbaycanın beynəlxalq münasibətlər sistemində iştirakı və özünəməxsus mövqelər qazanması üçün də geniş yol açdı.

Ölkəmizin ətrafında yaradılan informasiya blokadası yarıldı. Ümummilli Lider hər bir xarici ölkəyə səfəri zamanı diqqəti Azərbaycan həqiqətlərinə, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinə yönəltdi. Qarşıya bu hədəf qoyuldu ki, diplomatiyamız özünümüdafiə xarakteri daşımamalı, hücum diplomatiyası olmalıdır. Dağlıq Qarabağ münaqişəsinin həlli dövlətimizin xarici siyasətinin əsas məsələsi kimi öndə dayandı. Həmçinin sülh danışıqlarını cəsarətlə aparmaq üçün müstəqilliyimizin, suverenliyimizin qarantı olan ordu quruculuğuna diqqət artırıldı. Bu məqamı da xüsusi qeyd etməliyik ki, hələ hakimiyyətinin birinci dövründə Azərbaycanı gələcəkdə müstəqil dövlət kimi görmək istəyən ümummilli lider Heydər Əliyev bu istiqamətdə mühüm addımlar atmışdı ki, bunlardan da biri Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılması idi. Hazırda Azərbaycan Ordusunda xidmət edən zabitlərin böyük əksəriyyəti həmin liseyin yetirmələridir. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanın güclü ordusu yaradıldı.

Bir sözlə, aparılmış qısa təhlil tariximizin 1993-2003-cü illərinin aydın mənzərəsini yaradır. Bu illər tariximizə sabitlik, inkişaf illəri, Azərbaycanın müstəqil ölkə kimi yaşamasını təmin edən bir dövr kimi yazılıb. Son 17 ildən artıq dövrdə möhtərəm Prezidentimiz İlham Əliyev fəaliyyətini o illərdə müəyyən edilmiş strategiya çərçivəsində davam etdirərək Azərbaycanı inkişaf etdirir, tariximizə zəngin uğur səhifələrinin yazılmasını təmin edir.

Bu məqamı da xüsusi qeyd etməliyik ki, Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu illər də Azərbaycanın gələcək inkişafı üçün görülən mühüm işlərlə, atılan uğurlu addımlarla zəngindir. Belə ki, Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı, himni, gerbi ilk dəfə Naxçıvanda bərpa olundu, dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın birliyinə hesablanmış 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü təsis edildi.

Vətənini, torpağını, xalqını canından artıq sevən ulu öndər Heydər Əliyevin “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!” tezisi harada yaşamasından asılı olmayaraq bütün azərbaycanlıları qürurlandırır, onları vahid amal ətrafında birləşdirir, hamımızın bir Vətəni olmasına çağırış edir.

## Son 17 il Böyük Yolun davamı olaraq torpaqlarımızın işğaldan azad edilməsinə hazırlıq dövrü kimi də xarakterizə edilir

Möhtərəm Prezidentimiz İlham Əliyevin qətiyyətlə qeyd etdiyi kimi, bugünkü Azərbaycan Ulu Öndərin görmək istədiyi kimi inkişaf edir, onun qoyduğu yolla gedir, güclənir, möhkəmlənir və çox güclü regional amilə çevrilir.

Son 18 ilə yaxın dövrdə Heydər Əliyev siyasətinə sadiqliyini hər addımında təsdiqləyən Prezident İlham Əliyev yeni idarəçilik sistemi yaratmaqla, təkmil islahatlar həyata keçirməklə, dünyanın hər bir yeniliyinin Azərbaycanda tətbiqinə səy göstərməklə ölkəmizi daha da qüdrətləndirdi, sözünün imzası qədər dəyəri olduğunu nümayiş etdirdi. Dövlətimizin başçısı yeni-yeni hədəflər irəli sürməklə təsdiqlədiyi Dövlət proqramları, inkişaf strategiyaları əsasında onların gerçəkləşməsinə nail oldu, hər kəsi, dünyanı heyrətləndirən Azərbaycanın hazırkı reallıqlarını yaratdı. Azərbaycan dünyanın ən islahatçı ölkəsi, xalqımız ən xoşbəxt xalqları sırasında qərarlaşdı, ölkəmizin iştirakı olmadan regionda hansısa iqtisadi və siyasi layihənin həyata keçirilməsi mümkünsüz oldu. Möhkəm təməl üzərində inamla addımlayan Azərbaycanın yeganə problemi Dağlıq Qarabağ münaqişəsi idi. Məsələnin həllində güc və beynəlxalq hüququn əsas amillər olduğunu nəzərə alsaq, əminliklə deyə bilərik ki, Azərbaycan bu illər ərzində güclədi, münaqişənin həlli üçün möhkəm hüquqi bazanın yaradılmasına nail oldu.

Hər bir ölkənin inkişafında iqtisadi gücün əsas olduğu Prezident İlham Əliyevin atdığı addımlarda da öz aydın ifadəsini tapır. Son 18 ilə yaxın dövr ərzində Azərbaycan iqtisadiyyatını düzgün əsaslar üzərində qurması nəticəsində qarşıya çıxan bütün çətinliklərin aradan qaldırılmasına nail oldu. 2003-cü ildə “Neft kapitalını insan kapitalına çevirək!” tezisini irəli sürən Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadiyyatın şaxələndirilməsi siyasəti nəticəsində regionların potensial imkanlarından səmərəli istifadə edildi, güclü sahibkarlar sinfi formalaşır. Hazırda bütün dünyanı cənginə almış COVID-19 pandemiyasına qalib gəlmək üçün atılan addımlar, irəli sürülən təşəbbüslər də Azərbaycanın imkanlarının, iqtisadi gücünün təqdimatında əhəmiyyəli rol oynayır. Azərbaycan COVID-19 pandemiyasının davam etdiyi müddətdə 30-dan artıq ölkəyə humanitar yardım göstərib.

Ölkəmizin enerji sektorunda qazandığı uğurlar yenə də davamlılığı ilə diqqət çəkir.”Biz haqlı olaraq neft strategiyamızla fəxr edirik” deyən Prezident İlham Əliyev iqtisadi müstəqilliyin siyasi müstəqillik üçün əsas olduğunu xüsusi qeyd edir. Ölkəmizlə əməkdaşlıqda maraqlı olan dövlətlərin sayı artır, Azərbaycan dünyada öz prinsipial mövqeyi ilə seçilir. Azərbaycanın 2011-ci ildə 155 ölkənin dəstəyini qazanaraq, BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, BMT-dən sonra ikinci böyük siyasi təsisat olan və 120 ölkəni sıralarında birləşdirən Qoşulmama Hərəkatına sədrliyi bu inamın təsdiqi, bütün sahələrdə qazandığımız uğurların göstəricisidir.

Milli Qurtuluş Günümüz olan 1993-cü ilin 15 iyunundan indiyədək əsrə bərabər inkişaf yolu keçən, uğurlarının miqyası ilə dünyanın diqqətində olan Azərbaycan beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün ideal məkan seçilirsə, inkişafın Azərbaycan modelinin mövcudluğu yüksək səviyyələrdə bildirilirsə, deməli, ulu öndər Heydər Əliyevin böyük siyasi iradəsi, qətiyyəti, müdrikliyi, Azərbaycana bəslədiyi hədsiz sevgisi və məhəbbəti sayəsində ölkəmizin gələcək inkişafı üçün elə etibarlı dayaq yaradılıb ki, bu bünövrənin üzərində respublikamız davamlı inkişaf edir, sabaha doğru inamla irəliləyir. Son 18 ilə yaxın dövrün reallıqları bunun təsdiqidir. Azərbaycan demokratik inkişafı ilə diqqətdədir. İnsan hüquqlarının qorunması, azad mətbuatın inkişafı, seçkilərin beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində biri-birindən əhəmiyyətli addımlar atılıb və uğurlu nəticələr göz önündədir. Eyni zamanda, müharibə şəraitində yaşayan ölkə olaraq ordu quruculuğu prioritetliyini qorudu, torpaqlarımızı işğaldan azad etmək gücünə, qüdrətinə malik, dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşan Milli Ordumuz formalaşdı. Azərbaycan Ordusu 44 günlük İkinci Qarabağ müharibəsində qəhrəmanlığı, şücaəti ilə dünyanın ən yenilməz, məğrur ordusu olduğunu təsdiqlədi. Bu gün qürurvericidir ki, Azərbaycanın “Dəmir yumruq” əməliyyatı, müharibə təcrübəsi dünya dövlətlərində öyrənilir, onların dərsliklərə, kitablara salınacağı inkaredilməzdir.

Ulu öndər Heydər Əliyevin xalqa 1 oktyabr 2003-cü il tarixli müraciətində əksini tapan çağırışlar, inam və etimad real həyatda öz təsdiqini tapıb. Hər zaman bu fikri böyük qürurla, fəxrlə qeyd edirik ki, dahi şəxsiyyətin xalqımız və dövlətçiliyimiz qarşısında ən böyük və mühüm xidmətlərindən biri məhz sonrakı dövrdə Azərbaycanın tərəqqi yolunda əmin addımlarla irəliləməsini təmin edəcək layiqli varis, qətiyyətli Lider yetişdirməsidir. Heydər Əliyev siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu, məqsədyönlü daxili və xarici siyasət həm Azərbaycanın yüksəlişi və inkişafında, həm milli maraqların qorunmasında, həm də ölkəmizin dünya siyasi arenasında layiqli yer tutmasında öz ifadəsini tapır. Əvvəldə də qeyd etdiyimiz kimi, Azərbaycan Ordusunun ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etməsi, ərazi bütövlüyümüzün bərpa olunması zəngin dövlətçilik tariximizin ən qürurlu səhifəsidir. Ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt hiss edən qalib ölkənin qalib Lideri İlham Əliyev milyonların sevgisi şəksizdir. Bütün çıxışlarında, öz doğma yurd-yuvasından didərgin düşmüş soydaşlarımızla görüşlərində Dağlıq Qarabağ münaqişəsinin həllini tapacağını, məcburi köçkünlər üçün yaradılan şəraitin müvəqqəti olduğunu, onların tezliklə öz torpaqlarına qayıdacaqlarını böyük əminliklə söyləyən Müzəffər Ali Baş Komandan o günün gələcəyinə inanırdı. Çünki hədəf ərazi bütövlüyümüzün bərpası, işğala son qoymaq, Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu təsdiqləmək idi. Möhtərəm Prezidentimiz 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında Ermənistanın yürütdüyü faşist ideologiyasını, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətini ifşa edərək işğalçı ölkənin baş naziri Nikol Paşinyana beynəlxalq hüquqdan və tarixdən sözün əsl mənasında dərs keçdi, “Qarabağ Azərbaycandır və nida işarəsi” bəyan etdi. Həmin bəyanatdan bir il sonra-10 noyabr 2020-ci il tarixində Ermənistan kapitulyasiya aktına imza atdı, Azərbaycan hərbi-siyasi Qələbəsi ilə dünyaya səs saldı.

## Tarixi Zəfər Azərbaycanın inkişafı, bölgənin firavan gələcəyi üçün yeni perspektivlər açır

Dövlətimizin başçısı İlham Əliyev artıq Dağlıq Qarabağ münaqişəsinin tarixə qovuşduğunu, regionun inkişafında yeni səhifənin açıldığını, ölkəmizin gələcəyi ilə bağlı aydın baxışların olduğunu bildirir. Vətən müharibəsinin yaratdığı yeni reallıqlar ilk növbədə regionda sabitlik və təhlükəsizliyin möhkəmlənməsi üçün yeni əməkdaşlıq formatlarının yaradılmasını bir zərurətə çevirir. Artıq işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərinə start verilib. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” təsdiqlənib. İşğaldan azad edilmiş ərazilərimizdə təkmil idarəçilik sistemi formalaşdırılır ki, bu da öz növbəsində hədəflərə qısa zamanda nail olmağa əsas yaradır. Bu gün yeganə problem Ermənistanın minalanmış sahələrin xəritəsini Azərbaycana vermək istəməməsi, Böyük Qayıdışın gerçəkləşməsinə mane olmaq istəyi idi. Bu maneə də dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində aradan qaldırılır. Belə ki, iyunun 12-də dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev növbəti qələbəyə imza atdı. Ağdam rayonu üzrə minalanmış ərazilərin xəritələrinin Ermənistan tərəfindən Azərbaycana təhvil verilməsi möhtərəm Prezidentimizin və Azərbaycan diplomatiyasının növbəti qələbəsidir. Cənab İlham Əliyev bütün beynəlxalq platformalarda Azərbaycan torpaqlarının minalanması məsələsini qaldırıb, beynəlxalq birliyi bu xəritələrin Ermənistandan alınmasına çağırışlar edib, işğalçı dövlətin onları saxlamasına heç bir hüquqi əsasın olmadığını bəyan edib. ABŞ Dövlət Departamentinin, Avropa İttifaqının və Gürcüstan Respublikasının bu məsələdə fəal iştirakı və Ermənistanın minalanmış ərazilərin xəritələrini vermək məcburiyyətində qalması bütün münaqişəli məsələlərin həllində beynəlxalq hüquqa əsaslanan Azərbaycanın növbəti böyük nailiyyətidir.

Milli Qurtuluş Günündən başlanan yolun uğurlarını, onların zirvəsində dayanan Zəfərimizin müəyyənləşdirdiyi perspektivləri bir yazıda əhatə etmək qeyri-mümkündür. Azərbaycan möhtərəm Prezidentimiz, qalib ölkənin qalib Sərkərdəsi İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın birgə səyləri sayəsində ən yüksək zirvələri fəth edir. Heydər Əliyev irsinin təbliğində Heydər Əliyev Fondunun xidmətləri böyükdür. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasına, tariximizin, milli-mənəvi dəyərlərimizin, ədəbiyyatımızın təbliğinə davamlı töhfələri ilə diqqət çəkir. Azərbaycanın Birinci vitse-prezidenti kimi Mehriban xanım Əliyeva sosial problemlərinin həlli istiqamətində biri-birindən əhəmiyyətli layihələr həyata keçirir. Onun 44 günlük İkinci Qarabağ müharibəsi dövründə gənclərdə vətərpərvərlik, torpaq sevgisinin aşılanmasına, kompyuter arxasında Azərbaycanın həqiqətlərinin təbliğinə davamlı töhfələr vermələrinə etdiyi çağırışlar ölkə ictimaiyyətində böyük ruh yüksəkliyi yaratdı. Bu işlərin davamı olaraq tarixi Zəfərimizdən sonra dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevlə birgə işğaldan azad edilmiş torpaqlarımıza davamlı səfərləri bu birliyin qarşıda daha böyük uğurlar üçün stimsul olduğunu təsdiqləyir.

Qarşıda daha möhtəşəm günlər yaşanacaq. İşğaldan azad edilmiş ərazilərimizə hər səfərlərində sanki havanın da torpaqlarımızın tarixi sahibinə qayıtması sevincini yaşadığını xüsusi qeyd edən Prezident İlham Əliyevin təşəbbüsü, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə “Xarıbülbül” musiqi festivalının Cıdır düzündə 28 ildən sonra yenidən bərpası, bu möhtəşəm mədəniyyət tədbirində müxtəlif xalqların musiqi yaradıcılığının harmoniyasının yaradılması Azərbaycanın tolerant, multikultural dəyərlərə bağlılığının təsdiqi, gələcək perspektivlərin təqdimatı oldu. Bu gün qalib Azərbaycan məğlub Ermənistana sülh razılaşmasını təklif etməklə regionun inkişafında yeni səhifənin açılması istəyini nümayiş etdirir. Azərbaycan bu humanist, tərəqqipərvər addımı ilə Ermənistana keçmişlə deyil, gələcəklə yaşamağa çağırış edir.

Yenilməz, məğrur Azərbaycan xalqı, Zəfərlə dolu Milli Qurtuluş Günün mübarək!

# 15 iyun - Qurtuluşdan Zəfərə!

**Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür. Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. İyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan Heydər Əliyevdir.**




## Böyük xilaskarın tarixi dönüşü

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Beləliklə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən ovaxtkı iqtidar əhali arasında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi. Ümummilli Lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".



*Bəhruz QULİYEV,*
*"SƏS" qəzetinin baş redaktoru, fəlsəfə üzrə fəlsəfə doktoru*

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Əslində, bu, bütün xalqın ürəyinin səsi idi. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi. Beləliklə, 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.

## Müdrik siyasətin inkişaf və tərəqqi reallığı

İyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü.

"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz".

Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Həmin il "olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi. 1993-cü il oktyabrın 3-də Ümummilli Lider xalqımızın böyük əksəriyyəti tərəfindən Prezident seçildi. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, dünyada Azərbaycanın nüfuzu daha da artır. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk oldu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd edilir. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub inkişaf etdirmək idi. Bu, Ümummilli Liderin iradəsi sayəsində reallığa çevrildi. Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. AXC-Müsavat hakimiyyəti isə təbii ki, Heydər Əliyevin uğurlarını qısqanclıqla qarşılayıb ona mane olmağa çalışdı. Vəziyyətdən səbirlə çıxan Prezident Heydər Əliyev televiziya vasitəsilə xalqa müraciət etdi. İyunun 20-də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə yerli və xarici jurnalistlər üçün brifinq keçirdi. İyunun 21-də isə bir sıra ölkələrin diplomatları ilə görüşdü. Bu sahədə yürüdülən siyasət respublikanı informasiya blokadasından çıxardı. Dünyada ölkəmizlə bağlı formalaşan fikir müsbət yönümdə dəyişdi. Məhz belə bir mürəkkəb siyasi şəraitdə Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdi. Ümummilli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi. Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı, digər tərəfdən, bütün siyasi və diplomatik vasitələrin işə salınması ilə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Atəşkəsin həyati əhəmiyyəti onda idi ki, məhz bu müqavilədən sonra ölkəmizin dünya birliyinə inteqrasiyası sürətləndi, öz iqtisadi potensialından səmərəli istifadə edərək dünya bazarına daxil olmağa şərait yaradan beynəlxalq müqavilələr, razılaşmalar və s. əldə edildi. Ölkə daxilində yaranmış nisbi sabitlikdən, həmçinin beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və onun gerçəkləşdirilməsi də məhz ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Həyatın bütün sahələrində tərəqqi və dirçəliş baş verdi. Heydər Əliyev dühasının xidmətləri olan bu nailiyyətlər Azərbaycanı məhv olmaqdan qurtardı, müstəqilliyimizi daimi, əbədi, sarsılmaz, dönməz etdi. Bütün bunlar 1993-cü il 15 iyun tarixinin nailiyyətləridir. Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi.

Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması, qurtuluş deməkdir. Ulu Öndər Heydər Əliyev Azərbaycanı qüdrətli, nüfuzlu, demokratik dövlət kimi görmək istəyirdi, onun hər addım və hərəkətləri məhz buna yönəlmişdi. Məhz Ümummilli Liderin uzaqgörən siyasəti nəticəsində 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya qəbul olundu. Beləliklə, ölkədə daha genişmiqyaslı islahatlar aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına başlanıldı. Odur ki, Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin xilas günüdür. Qurtuluş günü Azərbaycanın xaosdan, anarxiyadan, hərc-mərclikdən, özbaşınalıqdan, parçalanma təhlükəsindən qurtulduğu, sabitliyə, əmin-amanlığa, demokratiyaya qovuşduğu gündür. Ümummilli Liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. 15 İyun tarixi təkcə dövlətçiliyimizin xilası deyildi. Bu tarix həm də Azərbaycanın bu gününü, sabahını müəyyənləşdirdi.

## Heydər Əliyevin görmək istədiyi qalib Azərbaycan

Heydər Əliyevin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri edib, ömür yolu doğma Vətənə xidmət nümunəsinə çevrilib. Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş bu müdrik siyasi və dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu kimi yer tutub. Heydər Əliyev fenomeninə məxsus iti zəka, müdriklik, uzaqgörənlik və əzmkarlıq ona əvəzsiz ümummilli lider mövqeyi qazandırıb.

*Ardı Səh. 14*

Əvvəli Səh. 13

# 15 iyun - Qurtuluşdan Zəfərə!

Çoxşaxəli və zəngin fəaliyyəti, misilsiz insani keyfiyyətləri sayəsində o, zəmanəmizin əbədiyaşar dahisinə çevrilib. Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyev irsini müstəqilliyinin təminatçısı kimi qəbul edir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun - Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir. Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bugünkü Azərbaycan isə məhz Heydər Əliyevin görmək istədiyi Azərbaycandır!

Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi daha işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı Ulu Öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin əlindədir. Prezident İlham Əliyevin bu siyasəti uğurla həyata keçirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib, ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlara imza atılıb. Bunu təkcə Azərbaycan vətəndaşları deyil, bütün dünya təsdiq edir. Azərbaycana gələn hər bir şəxs ölkəmizdə gedən inkişafa heyran qalır.




### Qarabağ Azərbaycandır!

Ötən il sentyabrın 27-dən başlayan, 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Azərbaycan xalqı öz liderinin - müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Bu real faktordur ki, bütün müharibələrdə əsas sözü xalq və onun ordusu dediyi kimi uğurlu zəfərlərdə sərkərdənin də çox böyük rolu olur. Bu gün Azərbaycan xalqı hansı səviyyədə uğurlu sərkərdəyə - Ali Baş Komandana sahib olduğunu aşkar gördü. Prezident İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə deyil, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. Sentyabrın 27-dən başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Prezident İlham Əliyev 17 ildə həyata keçirdiyi siyasətin nəticəsində Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevirdi. Ərazi bütövlüyümüz birmənalı olaraq təsdiq edildi.




### Qarabağın qurtuluşundan başlanan növbəti zəfərlərə doğru!

Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün etdi! Ermənistanın hərbi kaputilyasiyasına nail olduq! Bəşəriyyətə haqqın, ədalətin böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin - Azərbaycanın var olduğunu sübut etdik. Bu ədaləti 44 gün ərzində yazan Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları, bütün Türkiyə xalqı bir yumruq kimi birləşərək təkcə Ermənistanın yox, bütövlükdə haqsız güclərin üstünə getdi və sübut etdi ki, haqq yolunda, ədalətin, ərazi bütövlüyümüzün bərpası uğrunda vuruşuruq. 10 noyabrda Müzəffər Azərbaycan Ordusu cəmi 44 günə hərbi yolla 28 il düşmən torpağında inləyən vətən torpaqlarını işğaldan azad etdi. 44 gündə müzəffər Azərbaycan Ordusu dünyaya sübut etdi ki, döyüş meydanında zəfəri tanklarla, toplarla deyil, ağılla, zəkayla və bir də insan zehninin ən son nailiyyəti olan PUA-larla qazanmaq olar. Şuşa qalasının alınması əməliyyatı isə tamam başqadır. Prezident, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində bildirdi ki, Şuşanın azad edilməsi dünya hərb tarixində xüsusi yer tutatacaq: "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq. Çünki bu əməliyyatı bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək yalnız yüngül silahlarla silahlanmış şəkildə azad ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir".

Bəli, Azərbaycan əsgəri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümunəsi göstərdi. Düşmənin 30 il ərzində qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, müzəffər ordumuzun tətbiq etdiyi savaş strategiyası müasir hərb tarixinə yeni örnək oldu. Belə vəziyyətdə Ermənistanın qarşısında yalnız iki yoldan birini seçmək qalırdı. Ya Ermənistan ordusunun son tör-töküntüləri də döyüş meydanında son nəfərinə qədər məhv ediləcəkdi, ya da "ağ bayraq" qaldırıb, biabırçı hərbi məğlubiyyətini etiraf edəcəkdi.Paşinyan hakimiyyəti reallığı nəhayət ki, qəbul etdi və noyabrın 10-da Ermənistan "ağ bayraq" qaldırdı, kapitulyasiya bəyannaməsini imzaladı.

Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!".

Ölkə Prezidenti İlham Əliyevin xalqa müraciətində səsləndirdiyi bu sözlər hər bir azərbaycanlıda böyük sevinc və qürur hissləri yaratdı. Bu böyük qələbə eyni zamanda Azərbaycan xalqını dünyaya qürurlu xalq kimi tanıtdı. "Dağlıq Qarabağ Azərbaycan torpağı, beynəlxalq səviyyədə tanınan ərazimiz olmaqla yanaşı, ədalət məsələsidir, Azərbaycanın milli qürur məsələsidir",deyən Prezidentimizə olan inamı, sevgini birə beş artırdı. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Ulu Öndərin Prezidentimiz İlham Əliyev haqqında dediyi bu fikirlərin hər keçən gün öz təsdiqini tapdığının, hər bir azərbaycanlının Prezidenti olduğunun şahidi olur.

Bu gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda soyqırımları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. Bu qələbəni, zəfəri bizlərə yaşadan isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı ölkə Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, Güclü Ordumuz, Rəşadətli əsgər və zabitlərimizdir. Artıq bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək. Qurtuluşumuz və Qələbəmiz mübarək!

# Ermənistan Qarabağın mina xəritələrini harada saxlayır?

***Ötən həftə regionumuzda, xüsusən Azərbaycan-Ermənistan arasındakı sərhəddə baş verənlər diqqət mərkəzində oldu. Bu məsələlərlə bağlı "Moskva-Baku" portalında Andrey Şlyapnikovun təqdimatında yayımlanan "Diqqət Mərkəzində" verilişində maraqlı məqamlara toxunulub. Verilişi mətn formasında oxucularımıza təqdim edirik.***

## Mina müharibəsi

Azərbaycanın azad edilmiş Kəlbəcər rayonunda mina partlaması nəticəsində azərbaycanlı jurnalistlərin və yerli məmurların ölümləri ilə bağlı araşdırma ötən həftə diqqət mərkəzində oldu. Faciədən dərhal sonra Ermənistan Silahlı Qüvvələrinin təxribatı da daxil olmaqla bir çox versiya var idi, lakin istintaq jurnalistlərin olduğu avtomobilin Ermənistan ordusunun geri çəkilməsi zamanı qoyulmuş və tərk edilmiş bir tank əleyhinə mina tərəfindən partladıldığını göstərdi.

**Azərbaycan Baş Prokurorluğunun rəsmi açıqlaması: "İlkin istintaq müəyyən edib ki, hadisənin baş verdiyi ərazi işğaldan azad edildikdən sonra Azərbaycan Respublikası Silahlı Qüvvələrinin tam nəzarəti altındadır. Düşmən təxribat qruplarının ərazisinə girmək və orada mina qurmaq istisna edilir"**

Azərbaycan beynəlxalq hüquqa görə və tarixən özünə məxsus olan torpaqları azad etdikdən sonra onlarla insan minalanmış ərazilərin qurbanı oldu.

**Azərbaycan Xarici İşlər Nazirliyi: "Azərbaycan beynəlxalq ictimaiyyəti Ermənistanın beynəlxalq öhdəliklərini, o cümlədən qəsdən mina basdırmaq siyasətini kobud şəkildə pozmasına göz yummamağa və İrəvanın beynəlxalq hüquqa dair öhdəliklərini yerinə yetirməsini tələb etməyə çağırır"**

Azərbaycan Xarici İşlər Nazirliyi mülki şəxslərin ölümündə Ermənistanı günahlandırdı. Xarici İşlər Nazirliyi qeyd etdi ki, bu hadisə bir daha ərazidə minaların 2020-ci ilin payızında Qarabağdakı müharibə zamanı geri çəkilmə zamanı Ermənistan tərəfindən qəsdən yerləşdirildiyini göstərir. Məqsəd Azərbaycan tərəfinə mümkün qədər çox ziyan vurmaq və Azərbaycan mülki əhalisinin bölgəyə qayıtması üçün əlavə maneələr yaratmaqdır. Rusiya deputatları, İrəvanın minalanmış ərazilərin xəritələrini hələ də Bakıya təhvil verməməsi səbəbindən insanların öldüyünə inanırlar.

**Dövlət Dumasının deputatı Aleksey Juravlyov: "Sülh prosesi başladıqdan sonra İrəvanın etməsi lazım olan ilk şey, mövcud mina yerləri barədə Bakını məlumatlandırmaq və bu ərazilərin təhlükəsizliyinə kömək etmək, öz mütəxəssislərini ən son məlumatlarla göndərmək idi. İrəvanın hələ də Bakıya minalanmış ərazilərin xəritələrini təqdim etməməsi, Ermənistan tərəfinin məsələləri həll etmək istəmədiyini açıq şəkildə göstərir. Deyirlər, biz sülh tərəfdarıyıq, müqavilələr imzaladıq, amma hələ konkret hərəkətlər yoxdur. Və dinc insanları təhlükə altında qoyurlar, necə ki, bu, Azərbaycan jurnalistləri ilə faciəli şəkildə baş verdi. Və orada yerli sakinləri partlatmaq olar, qadınlar və uşaqlar da daxil olmaqla ... "**

*Sergey Mironov: "Əlbəttə ki, bu prosesin vacib bir hissəsi ərazinin minalardan təmizlənməsi olmalıdır ki, bu da orada tam hüquqlu bir dinc həyat qurmağa imkan verəcəkdir. Bu prosesdə iştirak edən bütün tərəflər müharibə irsini bir an əvvəl bitirmək üçün əllərindən gələni etməlidirlər"*

Bu vaxt ABŞ-a qaçan bir erməni polkovniki Koryun Qumaşyan ortaya çıxdı. Kəlbəcər və Laçın rayonlarındakı mina xəritələrinin yeganə sahibi olduğunu, iddia edilən ərazidə təcili mina qoyma əməliyyatına rəhbərlik etdiyini bildirdi.




*Koryun Qumaşyan: "Mənim kontingentim və mən Laçın və Kəlbəcər yaxınlığında 17 yük maşını mina yerləşdirdik, mina olduğuna görə bu ərazidə heç nə edə bilməyəcəksiniz. Hərbi əsirlərimizi bizə qaytarın, mina xəritəsini verəcəyəm. Bu əraziləri çox ağıllıca minaladıq, İngiltərədən və ya Rusiyadan mütəxəssislər gətirsələr də, yenə də bir şey etmək mümkün olmayacaq. Zəncirvari minalanmış yerlər var".*

Əsas sual ortaya çıxır - bu, doğrudur, yoxsa yalan. Doğrudanmı Qumaşyanda mina sahələrinin real xəritələri var?

Mütəxəssislər qeyd edirlər ki, Ermənistanda baş verən xaosda hər şey ola bilərdi, amma bu, daha çox şantaj kimi görünür. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova, keçən il 23 noyabr tarixindən etibarən Rusiyalı minaxtaranların 26 minə yaxın partlayıcı maddə aşkarladığını və 2 min hektardan çox ərazini, 2 min binanı və 650 kilometr yolları təmizlədiyini söylədi. Zaxarova minalanmış ərazilərin xəritələrinin köçürülməsindəki işlərdən danışdı.

*Mariya Zaxarova: "Bakı və İrəvanla, müntəzəm təmaslarda ən yüksək səviyyədə minalarla əlaqəli məlumat mübadiləsi də daxil olmaqla, mina təmizlənməsi məsələlərinin qurulmasına çağırırıq (yeri gəlmişkən, Rusiya xarici işlər nazirinin mayın ilk ongünlüyündə İrəvana və Bakıya səfərlər zamanı mövzu müzakirə olundu) və bu müddətin sürətlənəcəyinə ümid edirik"*

Rusiyalı mütəxəssislər, azərbaycanlı jurnalistlərin ölümünə qlobal reaksiyanın olduqca zəif olduğu qənaətindədirlər. Ümumi başsağlığı sözlərindən başqa konkret addımlar atılmadı.

*İqor Korotçenko: "Koordinasiya olunmuş siyasi təzyiq olmayana qədər, kütləvi informasiya kampaniyası aparılmayınca, Ermənistan eyni qeyri-konstruktiv mövqedən çıxış edəcək. Nə minalanmış ərazi xəritələrinin ötürülməsi, nə də nəqliyyat dəhlizlərinin blokdan çıxarılması nəzərə alınmayacaq - heç nə. Ermənistan başqa bir yolu başa düşməyəcək"*

Budur ilk nəticələr. Şənbə günü Azərbaycanın Ağdamdakı minalanmış ərazilərinin xəritələri müqabilində diversant kimi tutulan 15 erməni əsgərini Ermənistana təslim etdiyi məlum oldu.

**Azərbaycan Xarici İşlər Nazirliyi: "12 iyun 2021-ci ildə, Azərbaycan, Ağdam rayonundakı 97 min tank əleyhinə və piyada əleyhinə mina yerinin qeyd olunduğu minalanmış ərazilərin xəritələrini Ermənistan tərəfindən təqdim etməsi qarşılığında, həbs olunan 15 erməni diversantı Ermənistana təhvil verdi. Mübadilə Gürcüstan nümayəndələrinin iştirakı ilə Azərbaycan-Gürcüstan sərhədində keçirildi"**

Nazirlik mina xəritələrinin əldə edilməsinin on minlərlə Azərbaycan vətəndaşının, o cümlədən mina təmizlənməsi mütəxəssislərinin həyatını və sağlamlığını xilas edəcəyini və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ağdamda başlatdığı yenidənqurma layihələrini və məcburi köçkünlərin geri qaytarılmasına müsbət təsir edəcəyini qeyd etdi.

Nikol Paşinyan göstərilən köməyə görə Gürcüstan hökumətinə təşəkkür etdi, Rusiya prezidenti Vladimir Putinə, xarici işlər naziri Sergey Lavrov və müdafiə naziri Sergey Şoyquya isə xüsusi təşəkkürünü bildirdi.

*Paşinyan: "Minalanmış ərazilərin xəritələri müqabilində 15 hərbi əsiri qaytara bildik. Geri qaytarılanlar arasında 4 nəfər may ayında Qeqarkunik bölgəsində əsir götürülmüşdü. Qardaşlarımızın geri dönməsində kömək edən hər kəsə təşəkkür etmək istəyirəm"*

## "Troya atları"nın yarışı

Ermənistandakı seçkiqabağı yarış həlledici mərhələyə qədəm qoyur. Fövqəladə parlament seçkiləri iyunun 20-də keçiriləcək. Həftə ərzində bəlli oldu ki, Baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi "Vətəndaş Sazişi" partiyasın ciddi şəkildə mövqeyini itirir. "Ermənistan" blokuna rəhbərlik edən Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın partiyası dabanlarına basır. Sorğular göstərir ki, Paşinyanın partiyasının reytinqi ay ərzində 5% azalıb və iyun ayının əvvəlində 22.4% təşkil edib. Eyni zamanda, Koçaryan blokuna dəstək 2 dəfə artaraq 20,6%-ə çatdı. Hakim partiya, böyük ehtimalla ilk turda qələbə qazanmağın mümkün olmayacağını etiraf etdi. Paşinyan, qalib gəlsə hakim elitada qlobal təmizlənmə vəd edərək vəziyyəti xilas etməyə çalışır.

*Paşinyan: "Bu təmizləmələri həyata keçirmək üçün bizə bir mandat verin və bütün bu "Troya atları"nı hökumət sistemindən qovacağıq"*

Beləliklə, 2018-ci ildəki səhvini düzəltməyi vəd etdi. Təmizləmələr 2018-ci ildə hakimiyyət dəyişikliyindən sonra özlərini düzəltmə şansı qazanan məmurlara təsir edəcək, çünki onlar bunu anlamadılar. Paşinyana görə, onlar küçəyə atılacaq. Paşinyan özü ölkəni bərpa edəcəyinə söz verir, baxmayaraq ki, bunun son 3 ildə edilmədiyini etiraf edir. İndiyə qədər Paşinyan, müasir Ermənistan tarixində ən ağrılı məğlubiyyətə uğrayan və Ermənistana heç vaxt aid olmayan əraziləri itirən baş komandan kimi tarixə düşdü. İndi Paşinyan məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarıdır.

*Paşinyan: "Biz Ermənistanın dinc inkişafının tərəfdarıyıq, başqa ssenarilərə ehtiyacımız yoxdur. Seçkilər keçirilməlidir, bundan sonra təhlükəsizlik, iqtisadi və sosial problemlərin həllinə qayıdacağıq"*

Sülh müqavilələri imzalanandan sonra Azərbaycan ərazisinə göndərilən erməni diversantların taleyi də daxil olmaqla bir çox həll olunmamış məsələlər qalmaqdadır. Azərbaycanda onlar terrorizm maddəsi ilə mühakimə olunacaqlar. Seçkilər ərəfəsində Paşinyan çıxılmaz bir addım ataraq oğlu Aşotu Azərbaycanda diversant sayılan erməni əsirlərinə dəyişdirməyi təklif etdi.

Düzdür, çoxları bu açıqlamanı növbəti bir populist addım kimi qiymətləndirir. Paşinyanın oğluna Azərbaycanın nə ehtiyacı var? Niyə onu mühakimə etməlidir? O, Azərbaycan sərhədlərini pozmayıb. Nikol Paşinyanın əsas rəqibi Robert Koçaryan, Paşinyanı sevmədiyini gizlətmir.

*Koçaryan: "Baş nazir vəzifəsini müvəqqəti icra edən şəxsin simasında biz, demək olar ki, heç nəyi bacarmayan, dağıdılması mümkün olan hər şeyi dağıdan siyasi cırtdanı görürük"*

Qələbə qazanacağı təqdirdə, Koçaryan siyasi bir islahat aparacağına və baş nazirin səlahiyyətlərini azaldılacağına söz verir. Koçaryan nəzarətin bərpasını və böhrandan çıxmağı ən vacib vəzifə adlandırır. İndi isə ən maraqlı sual Moskvada kimə stavka ediləcəyidir. Başlanğıcda Paşinyan Kremldən razı qaldı, ancaq Koçaryanın Moskvaya işgüzar səfəri, Vladimir Putinlə telefon əlaqələri müəyyən bir intriqa yaratdı. Seçkilərdə iştirak etmək üçün Ermənistan MSK rekord sayda siyasi qüvvə- 22 partiya və 4 seçki bloku qeydiyyata aldı.

Bunlar arasında başqa bir keçmiş prezident- Serj Sarkisyan tərəfindən dəstəklənən "Şərəf bilirəm" bloku önə çıxır. O, Paşinyan haqqında xoşagəlməz şəkildə danışır və hətta Paşinyanın Qarabağla bağlı danışıqlar prosesini qəsdən pozduğunu və müharibə yaratdığını açıqladığı bir videoqeydini yayımladı.

İkinci tur baş tutarsa, burada həlledici amil ilk turda nə Paşinyan, nə də Koçaryan partiyasına səs verməyəcək seçicilərin səsləri ola bilər. Səsvermə prosesinin özü seçicilər üçün qeyri-adi hal alacaq. Qələmlə hər hansı bir işarə etmək lazım deyil. Seçki məntəqəsindəki hər bir vətəndaşa 26 bülleten veriləcək - hər siyasi qüvvə üçün biri. Bu bülletenlərdən seçici istədiyi bülleteni seçib seçki qutusuna qoyacaq. Qalan bülletenlər zibil qutusuna atılacaq.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

**QARABAĞ AZƏRBAYCANDIR!**

**15 iyun**

## Buffon açıqladı: "Bu həftə yeni klubumun adını öyrənəcəksiniz"



"Yuventus"dan ayrılan Canluici Buffon "Parma"ya keçəcəyi haqda yayılan məlumatlara münasibət bildirib. 43 yaşlı qolkiper "Sport Mediaset"ə müsahibəsində bir neçə gün ərzində yeni klubunun adına aydınlıq gələcəyini deyib: "Karyeramın sonunda nə əldə etmək istədiyimi dəqiq bilirəm. Mənim üçün daha vacib olan versiyanı seçəcəyəm. Menecerim sabah mənim yanıma gələcək. Beləliklə, 3-4 gün ərzində hər şeyi öyrənəcəksiniz".

Qeyd edək ki, Buffonu hazırda bir neçə klub heyətinə qatmaq istəyir. Bu klublar sırasında "Beşiktaş", "Benfika", "Barselona" və "Parma"nın adı çəkilir.

## Burcu Esmersoydan gözlənilməz rəqs!



Sosial şəbəkədəki paylaşımları ilə magazin gündəmindən düşməyən Burcu Esmersoy indi isə bikini ilə rəqs etdiyi anları paylaşıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, Esmersoy bikini ilə rəqs performansı və fit bədəni ilə izləyicilərini heyran qoyub. Burcu Esmersoy paylaşımında "Görəcəksiniz, yay gözlədiyinizdən daha yaxşı olacaq" şərhini yazıb.

## Alimlər yaxınlaşan "Alzeymer" xəstəliyinin 5 əlamətini açıqladı

**İngilis həkimlər yaxınlaşmaqda olan əqli zəifliyin beş əlamətini açıqlayıblar. Bunlar 40 yaşında belə görünə bilər. SİA xəbər verir ki, bu barədə "Alzeymer" xəstəliyini öyrənmək üçün İngiltərə xeyriyyə təşkilatının məlumatlarına istinad edən "Daily Express" yazır. Hər şeydən əvvəl, insanın görmə qabiliyyəti pisləşə bilər, cisimlərin məsafəsini və hərəkət sürətini qiymətləndirməkdə problemlər ola bilər.**



İkincisi, tam və ya qismən bir nitq itkisi, düşüncələri ifadə etmək üçün söz tapmaqda çətinlik ola bilər.

Üçüncüsü, insan depressiyaya düşə, əsəbi və özünə inamsız ola bilər.

Dördüncüsü, "Alzeymer" sindromu inkişaf edən bir xəstə zaman və məkan hissini itirə bilər.

Beşinci simptom yaddaş itkisidir. Əvvəllər orta yaşda müntəzəm yuxu məhrumiyyətinin qocalıqda "Alzeymer" riskinin artması ilə əlaqəli olduğu qəbul edilmişdir. Bu, qazanılmış bir xəstəlikdir, əvvəllər əldə edilmiş bilik və praktik bacarıqların bu və ya digər dərəcədə itkisi ilə idrak fəaliyyətində davamlı azalmanın nəticəsidir. Çox vaxt bu vəziyyət qocalıqda müşahidə olunur. Hər il dünyada 10 milyona yaxın yeni "Alzeymer" hadisəsi qeydə alınır.

***Elçin***

## DİQQƏT: Qarpızla yemişi bir yerdə yemək olmaz!

"Ümumiyyətlə yemişlə qarpızı birlikdə yemək olmaz. Eyni zamanda, buraya digər meyvələr də daxildir. Səbəb isə həddindən artıq lifli və maye tərkibli qida olduğu üçün bir çox hallarda bunların birlikdə və lazım olan miqdardan artıq qəbulu ishala səbəb olur. İshal da ən böyük problemlərdən biridir. Bununla da orqanizm həddindən artıq maye itirir". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova deyib.

Onun sözlərinə görə, bundan yaranan xəstəliklərdə əsas əlamətlər ishal, qusma, ürəkbulanma və qarın bölgəsindəki ağrılardır: "Ümumiyyətli, qarpızla yemişi eyni anda yemək olmaz. Onları 2 saat aralıqla və yaxud da yeməkdən 2 saat sonra yemək məqsədəuyğundur. Ana yeməklə bərabər qəbul etmək olmaz. Tutaq ki, günün bir yarısında qarpızdan istifadə edilirsə, digər yarısında da yemişdən istifadə edilsin".

Məhsəti Hüseynova sözlərinə belə davam edib: "Eyni zamanda, üzüm də çox təhlükəli ola bilər. Daha yaxşı olardı ki, həmin vaxtda digər meyvələrdən də çəkinin. Yəni, birlikdə yeməyin. Bu qanda şəkərin artmasına səbəb olur. Ümumiyyətlə, yaxşı olar ki, bu kimi meyvələr soyuqda deyil, yay fəslində qəbul olunsun. Yayda bunları sərin şəkildə yeyirlər ki, bu da mədəsində həssaslıq olan insanlarda tez özünü göstərir. Özünü göstərməsə belə, bağırsaqda, həzm sistemində problemlərə səbəb olur. Eyni zamanda da maddələr mübadiləsini ləngidir. Bu hallara mütləq diqqət etmək lazımdır. Belə halların yaşanmaması üçün hər meyvəni öz mövsümündə yeməliyik".



***Ayşən Vəli***

## Bacısını bıçaqlayan Bakı sakini tutulub



**Baş Prokurorluq Bakıda qadının öz qardaşı tərəfindən bıçaqlanması barədə yayılan məlumatlara münasibət bildirib. Baş Prokurorluqdan SİA-ya verilən məlumatda deyilir ki, bəzi kütləvi informasiya vasitələrində qardaşın bacısına 10 bıçaq zərbəsi vurması və bununla bağlı Xətai Rayon Polis İdarəsinin 34-cü Polis Bölməsində araşdırma aparılması barədə məlumatlar yayılıb.**

Bununla əlaqədar bildirik ki, paytaxt sakini Natiq Çələbiyevin aralarında yaranmış mübahisə zəminində onunla eyni evdə yaşayan bacısı İradə Çələbiyevaya 4 bıçaq xəsarəti yetirərək qəsdən sağlamlığına ağır zərər vurması faktı əsasında Xətai RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 126.1-ci (qəsdən sağlamlığa ağır zərər vurma) maddəsi ilə cinayət işi başlanıb. Natiq Çələbiyev şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. Hazırda iş üzrə istintaq davam edir.

## ELAN

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi Baş Dövlət Tikinti Müfəttişliyinin baş məsləhətçisi Əliyev Aydın Təhməz oğluna məxsus olan 1010788A nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**